RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 26 (10046) 11 fevral 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Azərbaycan dünyanın ən güclü dövləti ilə strateji tərəfdaşdır

Fevralın 10-da Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Ceyms Devid Vens Azərbaycana rəsmi səfərə gəlib. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Ceyms Devid Vensi qarşılayıb.

Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Ceyms Devid Vens ilə məhdud və geniş tərkibdə görüşləri olub.

Səfər çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanma mərasimi keçirilib.

İlham Əliyev və Ceyms Devid Vens mətbuata bəyanatlarla çıxış ediblər.

2-3

## ABŞ biznesinin yeni ünvanı Azərbaycandır

### Nüfuzlu investorların və biznes nəhənglərinin ölkəmizə marağı böyükdür

Prezident İlham Əliyev qonaqları qəbul edərkən vurğulayıb ki, ölkəmizdə çox müsbət biznes mühiti mövcuddur. Dövlət başçısı qeyd edib ki, son iki onillik ərzində ölkəmizə 350 milyard dollarlıq sərmayə cəlb olunub. Bu, Azərbaycanın son 20 ildə keçdiyi iqtisadi yolun ən mühüm statistik göstəricisidir. Bu həm də, sadəcə, bir rəqəm deyil, ölkənin beynəlxalq miqyasda etibarlı tərəfdaş imicinin maliyyə təsdiqidir. Eyni zamanda bu nəhəng kapital həm də gələcəkdə süni intellekt və "yaşıl enerji" sahələrinə yönələcək yeni sərmayə dalğası üçün möhkəm bünövrə rolunu oynayır.

Azərbaycan tərəfi Vaşinqtonla münasibətlərdə konkret iqtisadi nəticələrə söykənən "Strateji Tərəfdaşlıq Xartiyası"na üstünlük verir. Bu sənədin əsas sütunlarından biri də məhz süni intellekt və yüksək texnologiyalar sahəsidir. Prezident də bəyan edib ki, ABŞ rəhbəri Donald Trampla imzalanmış sənəd əməkdaşlığın hüquqi bazasını möhkəmləndirib. Ölkəmizin gələcək inkişaf modeli yalnız xammal ixracına deyil, həm də texnoloji mərkəzə çevrilməyə əsaslanır. Bu məqama diqqət yönəldən dövlət başçısı qeyd edib ki, Azərbaycanın məqsədi qlobal süni intellekt qovşaqlarından birinə çevrilməkdir: "Enerji, ticarət, investisiyalardan ibarət olan ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, biz indi rəqəmsal transformasiya, süni intellektə aid çox vacib sahələr üzərində çalışırıq və ümid edirik ki, Amerika şirkətləri bizim əsas tərəfdaşlarımız olacaq. Artıq yaxşı təmaslarımız var".

7

## Sülh, həmrəylik və tolerantlıq



Əsrlərdir Azərbaycanda sülh və dostluq mühitində yaşayan azərbaycanlılar və yəhudilər bu gün də birgəyaşayışın nadir və dəyərli nümunəsini qoruyub saxlayırlar. Yəhudi icmasının nümayəndələri ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etməklə yanaşı, Vətənimizin ərazi bütövlüyü uğrunda aparılan mübarizədə də fədakarlıq nümayiş etdiriblər. Birinci Qarabağ müharibəsində qəhrəman tankçı Albert Aqarunovun göstərdiyi şücaət Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə yazılıb. Şəhid Milli Qəhrəmanımızın əziz xatirəsinin dövlət səviyyəsində əbədiləşdirilməsi - Bakıda onun adına küçənin verilməsi və möhtəşəm abidənin ucaldılması - Azərbaycan cəmiyyətində multikultural dəyərlərə və vətəndaş həmrəyliyinə verilən yüksək qiymətin parlaq təcəssümüdür.

İkinci Qarabağ müharibəsi Azərbaycan cəmiyyətində milli birliyin və vətəndaş həmrəyliyinin ən parlaq təzahürlərindən biri oldu. Bu tarixi günlərdə ölkəmizdə yaşayan yəhudi icmasının nümayəndələri də etnik və dini mənsubiyyətindən asılı olmayaraq özlərini bu torpağın ayrılmaz parçası kimi hiss edərək yüksək vətənpərvərlik nümayiş etdirdilər. Onlar Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən "Dəmir yumruq" siyasəti ətrafında sıx birləşərək Azərbaycanın haqq mübarizəsinə açıq və qətiyyətli dəstək verdilər. Müharibə dövründə Azərbaycanın yəhudi icması təkcə ölkə daxilində deyil, beynəlxalq müstəvidə də fəallığı ilə seçildi. Azərbaycan-İsrail münasibətlərinin inkişafında hər zaman mühüm rol oynayan bu icma, eləcə də əsasən azərbaycanəsilli yəhudilərdən ibarət İsraildəki Azərbaycan diasporu ölkəmizin ədalətli mövqeyinin dünyaya çatdırılması istiqamətində ardıcıl fəaliyyət göstərdilər.

8

## Azərbaycan regionun güclü dövlətinə çevrilib



Prezident İlham Əliyevin siyasi iradəsi və strateji baxışları nəticəsində Cənubi Qafqazda sülh gündəliyi əsas prioritetə çevrilib. Azərbaycan və Ermənistanın siyasi liderlərinin davamlı təmasları dövlətlərarası normallaşma prosesinin ardıcıl və prinsipial xarakter aldığını göstərir. Qarabağ münaqişəsinə son qoyulması, bölgədə sülhün bərqərar olması, nəqliyyat dəhlizlərinin açılması regiona marağı əhəmiyyətli dərəcədə artırıb. Baş verən proseslər beynəlxalq təhlükəsizliyə, enerji marşrutlarına, yeni geosiyasi balansın formalaşmasına təsir göstərir. Bu baxımdan, ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vensin Ermənistana və Azərbaycana səfəri regionda sülh və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir, Azərbaycanla ABŞ arasında münasibətlərin daha da inkişafına şərait yaradır.

5

## Sosial-iqtisadi inkişafın monitorinqinin nəticələri açıqlanıb




Azərbaycan dünyada baş verən prosesləri diqqətlə izləyir, ölkənin sosial-iqtisadi imkanlarını qorumaq üçün zəruri addımlar atır, müxtəlif strategiya və dövlət proqramları hazırlayıb icra edir. Belə sənədlərdən biri də "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası"dır. Strategiyanın hədəfi dayanıqlı artan iqtisadiyyat üzrə nəzərdə tutulan məqsədlərin icrasına monitorinq və qiymətləndirməni həyata keçirməkdir. Strategiyaya əsasən, sənədin icrasına nəzarət İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə (İİTKM) həvalə olunub.

9

## TRIPP artıq reallıqdır

### Azərbaycanla ABŞ arasında siyasi-iqtisadi əlaqələr yeni mərhələyə keçir



Prezident İlham Əliyev fevralın 9-da ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən Azərbaycanın logistika imkanları və Zəngəzur dəhlizinin (TRIPP) əhəmiyyəti barədə demişdir: "Biz bağlantıları da diqqət mərkəzində saxladığımız mühüm sahələrdən biri hesab edirik. Nəqliyyat və logistika infrastrukturumuzu lazımi səviyyəyə çatdırmaq üçün indiyədək çox işlər görülüb. Hazırda bizim dəniz limanımızın yükaşırma qabiliyyəti 15 milyon tondur və onun genişləndirilməsi yükaşırma qabiliyyətini 25 milyon tona gətirib çatdıracaq. Dəmir yollarımız müasirləşdirilir. Ermənistan ərazisindən keçəcək və sonra Orta dəhlizin daha bir davamına çevriləcək yeni dəmir yolu tikilir. Doqquz beynəlxalq hava limanı, regionda ən böyüklərdən biri, bəlkə də ən böyük olan yükdaşıma hava yolu şirkəti - bütün bunlar artıq bir üstünlükdür".

7

## 1,1 milyon təqaüdçünün pensiyası artırıldı



Dövlət başçısının imzaladığı sənəd sosial islahatların sistemli xarakter daşıdığını və dövlətin sosial öhdəliklərinə sadiqliyini bir daha nümayiş etdirir. Sayca 5-ci paket çərçivəsində həyata keçirilən bu tədbirlər bütövlükdə ölkədə sosial təminat mexanizmlərinin təkmilləşdirilməsinə, sosial müdafiənin əhatə dairəsinin genişlənməsinə və vətəndaşların həyat səviyyəsinin yüksəldilməsinə yönəlib.

Nazirlik onu da bildirir ki, yanvar ayı üzrə pensiyalara edilən artımlar fevral ayının pensiyası ilə birlikdə ödəniləcək. İndeksləşdirmə bütün pensiyaçıları, o cümlədən hərbi qulluqçuları, hüquq-mühafizə orqanlarının əməkdaşlarını və digər kateqoriyaları əhatə edir. Ümumilikdə artım 1,1 milyon pensiyaçıya şamil olunur və bunun üçün dövlət büdcəsindən illik əlavə 640 milyon manat vəsait ayrılıb.

9

◆ Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana rəsmi səfəri

# Azərbaycan dünyanın ən güclü dövləti ilə strateji tərəfdaşdır

## Rəsmi qarşılanma mərasimi





**Fevralın 10-da Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey. Di. Vensin rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda ABŞ-nin vitse-prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey. Di. Vensi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi vitse-prezident Cey. Di. Vensə raport verdi.



Amerika Birləşmiş Ştatlarının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyətinin üzvləri vitse-prezident Cey. Di. Vensə, Amerika Birləşmiş Ştatları nümayəndə heyətinin üzvləri isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey. Di. Vensin qarşısından keçdi.

Sonda rəsmi foto çəkdirildi.

## Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-nin vitse-prezidenti ilə məhdud tərkibdə görüşü



Fevralın 10-da Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey. Di. Vens ilə məhdud tərkibdə görüşü olub.

## Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-nin vitse-prezidenti ilə geniş tərkibdə görüşü olub



**Fevralın 10-da Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey. Di. Vens ilə geniş tərkibdə görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi: Hörmətli qonaqlar, bir daha Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Amerika Birləşmiş Ştatlarının vitse-prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmək bizim üçün böyük şərəfdir. Biz elə indicə ikitərəfli gündəliyimizin müxtəlif aspektlərini, həmçinin regional inkişafı müzakirə etdik. İndi biz daha geniş kontekstdə dialoqumuzu davam etdirəcəyik.

Biz ölkələrimiz arasında münasibətlərə, xüsusilə son altı ayda baş verənlərə yüksək dəyər veririk. Bu müddət bizim tərəfdaşlığımız üçün tamamilə möhtəşəm olmuşdur. Son altı ayda mənim Prezident Trampla iki görüşüm olub. Bu görüşlər və sizin Azərbaycana rəsmi səfəriniz həqiqətən tərəfdaşlığımızı gücləndirmək üçün qarşılıqlı maraq və qarşılıqlı iradənin olduğunu nümayiş etdirir. Bu gün tərəfdaşlığımız rəsmi şəkildə daha yüksək səviyyəyə qalxacaq. Fəaliyyətin həcmi və komandalarımız arasında qarşılıqlı əlaqələr həqiqətən yüksəksəviyyəli tərəfdaşlıq ruhunu nümayiş etdirir.

Sizə yaxşı vaxt keçirməyi arzulayıram və əminəm ki, səfər bizim güclü əməkdaşlığımıza daha bir töhfə olacaq. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

**Vitse-prezident Cey. Di. VENS** dedi: Çox gözəl. Prezident Əliyev, bizi qəbul etdiyinizə görə Sizə və Sizin komandanıza təşəkkür edirəm. Burada ABŞ Hökumətinin ən parlaq nümayəndələrindən bəziləri əyləşib. Prezidentimiz Sizə öz salamlarını, xoş arzularını çatdırır və tərəfdaşlığınız üçün Sizə minnətdardır. Azərbaycan və Ermənistan arasında Prezident Trampın vasitəçilik etdiyi sülh razılaşması düşünürəm ki, onun vasitəçiliyi ilə olan yeddinci və ya səkkizinci sülh razılaşmasıdır. Bilirəm ki, Prezident Tramp bununla çox qürur duyur, çünki o, Sizin ölkənizə, həm də Ermənistana heyrandır. Əfsuslar olsun ki, sonuncu administrasiya bir çox səhvlərə yol verdi. Onların yol verdikləri səhvlərdən biri Azərbaycana münasibətdə çox sərsəm siyasətin yürüdülməsi idi. Biz Prezidentin rəhbərliyi ilə bunu düzəltdik. Buna görə mən çox minnətdaram.

Bilirəm ki, o, aranızdakı tərəfdaşlığa və dostluğa, rəhbər heyətlər və administrasiyalarımız arasında münasibətlərə görə çox minnətdardır. Burada olmaq çox xoşdur. Düşünürəm ki, bizim çox maraqlı söhbətlərimiz olacaq. Əlbəttə ki, biz "Strateji Tərəfdaşlıq Xartiyası"nı imzalayacağıq və mən bunu səbirsizliklə gözləyirəm.

Bu, ötən il bir çox nailiyyətləri olan dostlar arasında baş tutan yaxşı bir görüşdür və hesab edirəm ki, növbəti üç ildə biz daha çox nailiyyət qazanacağıq. Bizi qəbul etdiyiniz üçün təşəkkür edirik.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm.

❖ ❖ ❖

ABŞ-nin vitse-prezidenti sülh gündəliyinin irəli aparılmasında Prezident İlham Əliyevin nümayiş etdirdiyi liderliyi vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi roluna toxundu.

Cey. Di. Vens Azərbaycanda hökm sürən tolerant mühiti qeyd edərək, ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin bir ailə kimi sülh və dostluq şəraitində yaşadığını vurğuladı.

Söhbət zamanı TRIPP nəqliyyat dəhlizinin inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, Azərbaycanla ABŞ arasında siyasət, iqtisadiyyat, ticarət, yüksək texnologiyalar, süni intellekt, data mərkəzlərinin yaradılması və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

## "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası" imzalanıb



**Fevralın 10-da Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanma mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey. Di. Vens imzalayıblar.

## Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya

**Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti:**

1. İkitərəfli münasibətlərinin əsası kimi bir-birinin suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını dəstəklədiklərini bir daha təsdiqləyirlər;

2. 8 avqust 2025-ci il tarixində Vaşinqton şəhərində imzalanmış Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumundan çıxış edirlər;

3. Regional bağlantılar, iqtisadi sərmayə və təhlükəsizlik əməkdaşlığı da daxil olmaqla, qarşılıqlı maraq və ortaq fayda doğuran sahələrdə strateji tərəfdaşlıqlarının əhəmiyyətini təsdiqləyirlər;

4. Diplomatik, iqtisadi, enerji, texnoloji və təhlükəsizlik sahələri də daxil olmaqla, qarşılıqlı maraq doğuran məsələlərdə münasibətləri gücləndirmək üçün birgə niyyətlərini vurğulayırlar;

5. Strateji tərəfdaşlığın və genişləndirilmiş əməkdaşlığın planlaşdırılması və həyata keçirilməsinə yalnız dövlət qurumlarının deyil, həm də hər iki ölkənin özəl sektorlarının cəlb edilməsinin mühüm əhəmiyyətini təsdiqləyirlər.

**Bölmə I: Regional Bağlantılar, o cümlədən Enerji, Ticarət və Tranzit**

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları "Trans-Xəzər" Nəqliyyat Dəhlizini (Orta dəhliz) əsas götürərək quru, dəniz və hava nəqliyyatı infrastrukturunun inkişafı; enerji və data bağlantısı; ticarət və tranzitin asanlaşdırılması; gömrük nəzarəti və sərhəd keçidi; beynəlxalq multimodal logistika; və digər əlaqəli sahələrdə əməkdaşlıq yolu ilə regional bağlantıları təşviq etmək üçün birgə işləmək niyyətindədirlər. Onlar 8 avqust 2025-ci il tarixli Vaşinqton Sülh Zirvə Görüşünün Bəyannaməsinə uyğun olaraq iştirakçı ölkələrə beynəlxalq və ölkədaxili bağlantı üçün qarşılıqlı faydaları təmin etməklə, Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin edəcək və regionun beynəlxalq ticarət və tranzit potensialını reallaşdıracaq multimodal bağlantı layihəsi kimi "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) əhəmiyyətini qəbul edirlər.

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları "Əsrin müqaviləsi", "Cənub qaz dəhlizi" kimi layihələrin həyata keçirilməsi ilə nəticələnmiş və sıx əməkdaşlıq sayəsində hər iki tərəfə və daha geniş regiona fayda vermiş Azərbaycan-ABŞ münasibətlərinin məhsuldar tarixinə əsaslanaraq, ikitərəfli iqtisadi əlaqələri təşviq etmək məqsədilə biznes mühitinin, ticarət və sərmayə axınlarının inkişaf etdirilməsi istiqamətində çalışmaq niyyətindədirlər. Bu məqsədlə:

1. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Orta dəhlizin inkişafına xüsusi diqqət ayıraraq enerji, nəqliyyat və rəqəmsal infrastruktur sektorlarında, o cümlədən TRIPP və digər layihələrin inkişaf etdirilməsi vasitəsilə iqtisadi artımı və regional bağlantıları təşviq etmək üçün əməkdaşlığı genişləndirmək niyyətindədirlər;

*Ardı 3-cü səh.*

◆ Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana rəsmi səfəri

# Azərbaycan dünyanın ən güclü dövləti ilə strateji tərəfdaşdır

## Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya

*Əvvəli 2-ci səh.*

2. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları regional bağlantıların əhəmiyyətini qəbul edərək, enerji və nəqliyyat sektorlarına, eləcə də rəqəmsal infrastrukturun inkişafına dövlət və özəl sektor sərmayələrini səfərbər etmək imkanlarını araşdırmaq niyyətindədirlər;

3. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi Azərbaycan Respublikasının strateji əhəmiyyətini qəbul edərək, ikitərəfli formatda və üçüncü ölkələrlə tərəfdaşlıq vasitəsilə interkonnektor layihələri kimi birgə layihələrin icrası və təchizat marşrutlarının şaxələndirilməsi istiqamətində neft, qaz və elektrik enerjisi sektorları da daxil olmaqla, enerji əməkdaşlığını genişləndirmək niyyətindədirlər;

4. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları mülki nüvə əməkdaşlığını dərinləşdirmək niyyətindədirlər;

5. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları kritik mineralların Orta dəhliz vasitəsilə qlobal bazarlara tranzitini asanlaşdırmaqla bağlı əməkdaşlıq etmək niyyətlərini ifadə edirlər.

**Bölmə II: İqtisadi Sərmayələr, o cümlədən Süni İntellekt (AI) və Rəqəmsal İnfrastruktur**

1. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları iqtisadi artımı gücləndirmək, sərmayələri təşviq etmək və ikitərəfli biznes mühitini inkişaf etdirmək üçün əməkdaşlığı genişləndirmək niyyətindədirlər. Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikasının qlobal iqtisadiyyata daha da inteqrasiya etmək və Xəzər regionu üçün enerji, ticarət, data, maliyyə, nəqliyyat və logistika şəbəkəsi kimi mövqeyini gücləndirmək səylərini alqışlayır;

2. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları iqtisadi və ya ticarət dialoqu platformalarının təşkili imkanlarının araşdırılması da daxil olmaqla, ikitərəfli ticarət və sərmayələri artırmaq üçün strateji fürsətləri müəyyənləşdirmək niyyətindədirlər;

3. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları özəl sektorun fəal iştirakı ilə ikitərəfli və regional iqtisadi, ticarət və sərmayə əməkdaşlığını inkişaf etdirmək üçün əməkdaşlığı genişləndirmək niyyətindədirlər;

4. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları AI tərəfdaşlıqlarının inkişaf etdirilməsi üzrə əməkdaşlığı genişləndirmək və müvafiq hallarda kosmik sənaye sahəsində əməkdaşlığı və Azərbaycan Respublikasında özəl sektorla əməkdaşlıq ilə AI data mərkəzlərinin inkişafı da daxil olmaqla rəqəmsal infrastruktura sərmayə qoyuluşunu təşviq etmək niyyətindədirlər;

5. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları uğurlu beynəlxalq təcrübələrə əsaslanaraq, özəl müəssisə kapitalını təşviq etməyə, texnoloji inkişafı erkən mərhələdə riskdən azad etməyə və kommersiyalaşmanı sürətləndirməyə yönəlmiş birgə Tədqiqat və İnkişaf (R&D) dəstək alətləri, innovasiya körpü platformaları, eləcə də kibertəhlükəsizlik və süni intellekt sahəsində sektor-əsaslı təşəbbüslər kimi məxsusi mexanizmlərin yaradılmasını araşdırmaq niyyətindədirlər;

6. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları inkişafda olan texnologiyaların, platformaların və biznes təcrübələrinin tətbiqində uğurlu təcrübələri bölüşmək və texniki yardım göstərmək, dəstəkləyici tənzimləyici mühitə əsaslanaraq Azərbaycan Respublikasında istedadların inkişafı və bacarıqlı texnoloji işçi qüvvəsinin artımı üçün tərəfdaşlığı gücləndirmək və transsərhəd və Trans-Xəzər rəqəmsal bağlantılar üçün sərmayələri təşviq etmək niyyətindədirlər;

7. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikasında rəqəmsal infrastrukturun inkişafı və AI tətbiqi üçün birgə tədqiqatı, inkişafı, kommersiyalaşmanı, texnologiyanın mühafizəsini və qarşılıqlı müəyyən edilmiş şərtlər əsasında, hüquqi və tənzimləyici çərçivələrə uyğun olaraq texnologiyaların könüllü ötürülməsini dəstəkləmək məqsədilə hökumətlərarası səviyyədə və dövlət-özəl tərəfdaşlıqları vasitəsilə əməkdaşlıq etmək niyyətindədirlər.

**Bölmə III: Təhlükəsizlik Əməkdaşlığı**

Cənubi Qafqazda sülh Azərbaycan Respublikasının və Amerika Birləşmiş Ştatlarının ortaq marağındadır və Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında təhlükəsizlik əməkdaşlığı hər iki dövlətə, eləcə də beynəlxalq və regional sülh və təhlükəsizliyə fayda verir. Birləşmiş Ştatlar Azərbaycan qüvvələrinin beynəlxalq və regional təhlükəsizliyi irəlilətmək üçün Birləşmiş Ştatlar və koalisiya tərəfdaşları ilə birlikdə xidmət etdiyini nəzərə almaqla, Azərbaycanın beynəlxalq sülhməramlı səylərə verdiyi töhfələri yüksək dəyərləndirir.

1. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları müdafiə sənayesi məhsullarının satışı da daxil olmaqla, müdafiə və təhlükəsizlik əməkdaşlığının əhatə dairəsini genişləndirmək niyyətindədirlər;

2. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları terrorizm təhdidinə qarşı birgə mübarizə aparmaq öhdəliklərini nəzərə alaraq, mövcud antiterror əməkdaşlığını genişləndirmək niyyətindədirlər;

3. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları kibertəhlükəsizlik və mühüm infrastrukturun mühafizəsi sahəsində bacarıqları artırmaq məqsədilə əməkdaşlıq etmək niyyətindədirlər;

4. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikasının mina və digər partlayıcı maddələrlə çirklənmə səbəbindən üzləşdiyi ciddi çətinlikləri nəzərə alaraq, maliyyə dəstəyi və texnologiya ötürülməsi vasitəsilə humanitar minatəmizləmə sahəsində potensialın artırılmasında əməkdaşlıq etmək niyyətindədirlər.

**Bölmə IV: İnstitusional Çərçivə və Tətbiq**

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları bu Xartiyadan irəli gələn öhdəliklərini yerinə yetirməklə bağlı ortaq niyyəti qəbul edərək mövcud Strateji Tərəfdaşlıq çərçivəsinin bir hissəsi kimi, iqtisadiyyat və ticarət; enerji; bağlantılar, AI və rəqəmsal inkişaf; təhlükəsizlik və müdafiə daxil olmaqla, əməkdaşlıq sahələri üzrə İşçi Qrupları yarada bilərlər.

Müvafiq İşçi Qrupları hazırkı Xartiyanın imzalanmasından sonrakı üç ay ərzində layihələrin siyahısını və onların həyata keçirilməsi üçün yol xəritələrini razılaşdırmaq niyyətindədirlər.

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları hazırkı Xartiya çərçivəsində ildə ən azı bir dəfə müntəzəm olaraq görüşmək niyyətindədirlər və tərəfdaşlıqlarının həyata keçirilməsi üçün zəruri olan və qarşılıqlı surətdə müəyyən edilmiş digər dialoq platformaları yarada bilərlər.

**Azərbaycan Respublikası Hökuməti adından** | **Amerika Birləşmiş Ştatları Hökuməti adından**

## Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ-nin vitse-prezidenti Cey. Di. Vens mətbuata bəyanatlarla çıxış ediblər











**Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey. Di. Vens mətbuata bəyanatlarla çıxış ediblər.** **AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.**



### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab vitse-prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Cənab vitse-prezidenti Azərbaycanda rəsmi səfərdə salamlamaq bizim üçün böyük şərəfdir. Bu gün bizim ikitərəfli gündəliyin bir çox məsələlərini əhatə edən əla söhbətimiz oldu. Biz Azərbaycana çox müsbət münasibətə görə Tramp-Vens administrasiyasına olduqca minnətdarıq. "Strateji Tərəfdaşlıq haqqında Xartiya"nın bu gün imzalanması mərasimi heyətlərimizin altı ay ərzində gördüyü çox gərgin işin təzahürüdür. Altı ay əvvəl Prezident Trampla Vaşinqtonda tarixi görüş və "Strateji Tərəfdaşlıq haqqında Xartiya"nın tərtib edilməsi üçün İşçi qrupunun yaradılması haqqında sənədin imzalanması ikitərəfli əməkdaşlıq üçün yeni imkanlar yaratmışdır.

Bizim üçün dünyanın ən qüdrətli ölkəsi - Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaş olmaq böyük şərəfdir. Biz, həmçinin Prezident Trampa, vitse-prezident Vensə və onların heyətinə Qafqazda sülhə verdikləri töhfəyə görə çox minnətdarıq. Ötən avqustda Ermənistan və Azərbaycan Ağ Evdə Prezident Trampın iştirakı ilə Sülh Sazişini parafladılar və biz Prezident Trampın, həmçinin şahid kimi imzaladığı Sülh haqqında Birgə Bəyannaməni imzaladıq. Artıq altı aydır ki, biz sülh şəraitində yaşayırıq. Biz sülh içində yaşamağı öyrənirik.

Biz bu cür böyük töhfəyə görə ABŞ Hökumətinə çox minnətdarıq. Biz Azərbaycan vasitəsilə Ermənistana gedən yüklərin tranzitinə nəinki bütün məhdudiyyətləri qaldırmışıq, o cümlədən özümüz Ermənistana neft məhsullarının təchizatına başlamışıq. Beləliklə, ticarətin və əməkdaşlığın başlanğıcı reallaşır. Tramp-Vens administrasiyasının regionumuzdakı səylərinin mühüm nəticələrindən biri "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" - TRIPP layihəsidir ki, o, nəinki Azərbaycanın iki hissəsini birləşdirəcək, o cümlədən Azərbaycan, Ermənistan və digər qonşuların ərazisi vasitəsilə Asiya ilə Avropanı birləşdirəcək çox etibarlı, təhlükəsiz və böyükmiqyaslı daşımalar dəhlizidir. Beləliklə, regionda sülh sahəsində əldə olunmuş nəticələr gücləndirilir. Bu gün Birləşmiş Ştatlarla Azərbaycan arasında münasibətlər tamamilə yeni mərhələyə qədəm qoyur.

Əziz qonaqla imzaladığımız Xartiyada əməkdaşlığımızın müxtəlif istiqamətləri əks olunur. Biz təhlükəsizlik və antiterror əməliyyatları məsələləri üzərində işimizi davam etdirəcəyik. Bu gün Azərbaycan öz təbii qazı ilə 16 ölkənin enerji təhlükəsizliyini təmin edir. Onların 11-i NATO-nun üzvü, ABŞ-nin müttəfiqidir.

Bağlantılara gəldikdə, artıq qeyd etdiyim kimi, TRIPP layihəsi regionda sülhün inkişafına və əməkdaşlığa növbəti töhfə olacaq. Biz müdafiə məhsullarının satışı sahəsində yeni səhifə açırıq və bu, həmçinin perspektivlidir. Əlbəttə ki, süni intellekt mərkəzlərinin yaradılması bu gün ikitərəfli gündəliyimizin bir hissəsidir və Amerikanın aparıcı şirkətləri ilə işbirliyi quraraq artıq ilkin nəticələrimiz var. Başqa sözlə, vitse-prezident Vensin bugünkü səfəri imzalanmış Strateji Xartiya, danışıqların mahiyyəti, dostumuz və qonağımızın qəbulu baxımından tarixidir. Cənab vitse-prezident, xoş gəlmisiniz.

❖ ❖ ❖

Sonra ABŞ-nin vitse-prezidenti bəyanatla çıxış etdi.

### Vitse-prezident Cey. Di. Vensin bəyanatı

- Təşəkkür edirəm, Prezident Əliyev. Mən ABŞ Prezidentinin şəxsən Sizə, eləcə də Azərbaycan xalqına ən səmimi salamlarını çatdırmaq istəyirəm. Düşünürəm ki, bu, ABŞ üçün çox uzunmüddətli, çox mühüm tərəfdaşlıq və dostluqdur. Fikrimcə, bir çox amerikalılar bəlkə də bilmir. Məsələn, azərbaycanlılar Əfqanıstandan çıxan ən sonuncu tərəf oldular. Onlar dünya səviyyəsində terrorçuluğa qarşı aparılan mübarizəyə çox böyük dəstək verdilər. Onlar ABŞ-nin hərbi dənizçiləri ilə Əfqanıstanda çiyin-çiyinə vuruşublar və faktiki olaraq, dünyanın istənilən yerini götürsək belə, az sayda olan ən mübariz və cəsarətli qoşunlardan biri kimi nüfuz qazandılar. Bu gün biz bu dostluğa təşəkkür əlaməti olaraq buraya gəlmək istəyirdik, sözün əsl mənasında, səhifə çevirmək və növbəti fəslə keçmək istəyirdik.

Düşünürəm ki, Prezident Trampın və Prezident Əliyevin rəhbərliyi ilə daha güclü və daha yaxşı münasibətlər qurulacaq. Burada - Azərbaycanda danışmaq və elan etmək üçün çox məsələlər var.

Fikrimcə, biz burada baş verən bəzi əla məsələlər haqqında bütün günü danışa bilərdik. Ərazi sularınızın qorunması ilə bağlı Azərbaycana bəzi yeni qayıqları göndərəcəyik. Biz fərəhlə elan edirik və düşünürəm ki, mən Azərbaycanın iki hissəsini birləşdirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrut"u ilə bağlı gələn ilk şəxs oldum.

Ümidimiz Azərbaycan ilə Ermənistan arasında həqiqətən inanılmaz Sülh Sazişinin dayanıqlı olmasını mümkün edəcək iqtisadi, təbii sərvətlər, əsas minerallarla bağlı əməkdaşlığın qurulmasıdır. Bilirik ki, toqquşmanın qarşısını alacaq və müharibələrə imkan verməyəcək mühüm məsələlərdən biri iki xalq arasında qarşılıqlı mədəni mübadilələrdir. Onlar birgə çalışanda böyük əmin-amanlıq yaranır və bir-biri ilə mübarizə aparmır.

Hazırda Sülh Sazişi baxımından düşünürəm ki, Prezident Əliyev həqiqətən böyük təşəkkürə layiqdir. Bu gün mən Ermənistanda idim. Ermənistanın Baş naziri və Azərbaycan Prezidentinin liderliyi olmasaydı, biz Sülh Sazişinə nail ola bilməzdik. Düşünürəm ki, üç şəxs tarixi sülhü yaratdı. Bu ölkənin Prezidenti, Ermənistanın Baş naziri və əlbəttə, ABŞ Prezidenti birgə işləyərək, əvvəllər müharibə olmuş məkanda sülh yaratdılar. Düşünürəm ki, gələcəkdə bir vaxtlar yalnız mübarizə və münaqişə olan yerdə əmin-amanlıq yaranacaq. Bu, Prezident Əliyevin liderliyinin və rəhbərliyinin bariz nümunəsidir. Bu məsələlərdə ABŞ Prezidenti xarici siyasətimizi qurur. Bir halda ki, biz ticarətlə məşğul ola, tərəfdaşlıq qura biləriksə, nəyə görə biz bir-birimizlə vuruşmalıyıq?!

Fikrimcə, ABŞ ilə Azərbaycan arasında tərəfdaşlıq regionda daha möhkəm sülhə və əmin-amanlığa aparacaq. ABŞ-nin iş adamları üçün əlavə bazarlara çıxış yaranacaq. Bununla daha təkmil dünya yaranacaq ki, insanlar bir-biri ilə vuruşmasınlar, ticarət aparsınlar.

Düşünürəm ki, bu, ABŞ Prezidentinin missiyasının və xarici siyasətinin özəyidir. Biz ümumi maraqlar əsasında çıxış edə və bir-birimizlə daha böyük işlər qura bilərik. Biz strateji tərəfdaşlıq sənədini imzaladıq. Fikrimcə, bu, tərəfdaşlığı rəsmiləşdirir və çox aydın şəkildə göstərir ki, ABŞ-Azərbaycan münasibətləri dayanıqlıdır və xalqlarımız üçün böyük nəticələr verməkdə davam edəcək.

Şəxsən öz tərəfimdən qeyd edim ki, mən burada olmaqdan çox şadam. Enişdən əvvəl işçilərimə deyirdim ki, Prezident Tramp kimi Prezident Əliyev də dünyada türklər və israillilər ilə həqiqətən yaxşı münasibətlərə malikdir.

Həmçinin birincisi, burada yeməklər çox ləziz olmalıdır. İkincisi isə dövlət başçısı həqiqətən cəlbedici şəxsdir. Mən təsdiqləyə bilərəm ki, o, çox cəlbedicidir. Bir az sonra biz yeməkləri dadacağıq və əminəm ki, o da ləziz olacaq.

İcazə verin, həmçinin qeyd edim ki, ikinci xanım və mən bu gün axşam ziyafətdə iştirak etməkdən çox məmnunuq. Belə başa düşürəm ki, Azərbaycanın Birinci vitse-prezidenti Prezidentin həyat yoldaşıdır və ümid edirəm ki, bu, ikinci xanımı hər hansı başqa bir fikrə gətirmir. Mən bunları şəxsən öz tərəfimdən, eləcə də böyük xalqlarımızın dostluğu baxımından söyləmək istəyirəm. Burada olmaqdan çox böyük şərəf hissi duyuram və müzakirəni davam etdirməkdən çox məmnunam.

Tanrı sizi qorusun. Çox sağ olun.

## "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il noyabrın 27-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2026-cı il*

## A.İ.Mursaqulovun Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azər İsmayıl oğlu Mursaqulov Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 fevral 2026-cı il*

## R.S.İsmayılovun Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəşad Sahil oğlu İsmayılov Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 fevral 2026-cı il*

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

Amerika Birləşmiş Ştatlarının (ABŞ) vitse-prezidenti Cey. Di. Vens fevralın 10-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ABŞ-nin vitse-prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Vitse-prezident Cey. Di. Vensi Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.



## "Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsinə və onun şərtlərinin gözlənilməsinə nəzarət Qaydaları"nın və "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 40** **Bakı şəhəri, 6 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Gömrük tarifi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1192-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 17 avqust tarixli 183 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsinə və onun şərtlərinin gözlənilməsinə nəzarət Qaydaları"nın və "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 464 (Cild I); 2024, № 3, maddə 349) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2-1. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

2. Həmin Qərarla təsdiq edilmiş "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci hissənin birinci abzasında, 1.1-ci, 1.2-ci və 1.5-ci bəndlərdə "sursat istehsal etmək" sözləri "sursatın layihələndirilməsi və istehsalı" sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Döyüş təyinatlı hərbi texnika, hərbi silah və döyüş sursatının dövriyyəsinə (satışına, idxalına və ixracına münasibətdə) tələb olunan əlavə şərtlər:

1-1.1. satışına (idxal edilən döyüş təyinatlı hərbi texnika, hərbi silah və döyüş sursatı istisna olmaqla):

1-1.1.1. istehsal prosesinin məmulatın texnoloji sənədlərinə uyğun qurulması;

1-1.1.2. texnoloji və konstruktor sənədlərinin normativ hüquqi aktların tələblərinə və standartlara uyğun olması;

1-1.1.3. texniki şərtlərin normativ hüquqi aktların tələblərinə və standartlara uyğun olması;

1-1.1.4. istehsal prosesinin ərizəçi tərəfindən həyata keçirilən mərhələlərinin adı və təsviri barədə məlumat.";

2.3. 2-ci hissənin birinci abzasında, 2.1-2.3-cü bəndlərdə "texnikanı istehsal etmək" sözləri "texnikanın layihələndirilməsi və istehsalı" sözləri ilə əvəz edilsin;

2.4. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

"2-1. Döyüş təyinatlı hərbi texnika, hərbi silah və sursatın ehtiyat hissələrinin dövriyyəsinə tələb olunan əlavə şərtlər:

2-1.1. satışına (döyüş təyinatlı hərbi texnika, hərbi silah və sursatın idxal edilən ehtiyat hissələri istisna olmaqla):

2-1.1.1. istehsal prosesinin məmulatın texnoloji sənədlərinə uyğun qurulması;

2-1.1.2. texnoloji və konstruktor sənədlərinin normativ hüquqi aktların tələblərinə və standartlara uyğun olması;

2-1.1.3. texniki şərtlərin normativ hüquqi aktların tələblərinə və standartlara uyğun olması;

2-1.1.4. istehsal prosesinin ərizəçi tərəfindən həyata keçirilən mərhələlərinin adı və təsviri barədə məlumat.";

2.5. "Qeydlər"in 5-ci hissəsində "9-cu (partlayıcı maddələrin və partlayıcı qurğuların istehsalı və satışı) hissəsində göstərilən mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi isə həmin Fərmanın 3-cü hissəsinin ikinci abzasına uyğun olaraq dövlət müəssisələri və ya səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətləri, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə dövlət müəssisələrinin iştirak etdiyi birgə müəssisələr" sözləri "1-1-ci hissəsində göstərilən mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların Azərbaycan Respublikasının ərazisində satın alınması isə həmin Fərmanın 3-1-ci hissəsinə uyğun olaraq yalnız Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanları, həmçinin müdafiə təyinatlı məhsulların istehsalını və təmirini tamamlamaq məqsədilə müvafiq fəaliyyət növləri üçün lisenziya almış və ya lisenziya alınması tələbinin şamil olunmadığı hüquqi şəxslər" sözləri ilə əvəz edilsin;

2.6. "Qeydlər"ə aşağıdakı məzmunda 7-9-cu hissələr əlavə edilsin:

"7. Əlavə Şərtlərin 1-ci, 1-1-ci, 2-ci və 2-1-ci hissələri həmin hissələrdə nəzərdə tutulan əşyaların hər növünə xüsusi icazə verilməsində ayrılıqda tətbiq olunur.

8. Əlavə Şərtlərin 1-1-ci və 2-1-ci hissələrində nəzərdə tutulan əşyaların satışına xüsusi icazə alındıqdan sonra istehsal prosesinin ərizəçi tərəfindən həyata keçirilən mərhələlərində dəyişiklik baş verdikdə ərizəçi 3 (üç) iş günü ərzində Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinə məlumat verməlidir.

9. Adına və texniki parametrlərinə görə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevraI tarixli 42 nömrəli Qərarı ilə təsdiq edilmiş "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun kodlar üzrə, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin Siyahısı"na aid edilən mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların idxal, ixrac və tranzit əməliyyatları "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarına əsasən aparılır.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikası Prezidentinin "Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında" 2015-ci il 23 fevral tarixli 477 nömrəli, "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya şuralarının yaradılması haqqında" 2016-cı il 3 fevral tarixli 762 nömrəli, "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" 2016-cı il 22 iyun tarixli 940 nömrəli, "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında" 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli, "Sosial sığorta ehtiyatından istifadə Qaydası"nın və "Sığortaolunanlar üzrə xüsusi hesaba əlavə vəsaitlərin ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 12 sentyabr tarixli 1597 nömrəli, "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli, "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 10 dekabr tarixli 393 nömrəli, "Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 28 dekabr tarixli 448 nömrəli və "Dövlətə məxsus olan hüquqi şəxslərdə Apellyasiya şuralarının yaradılması haqqında" 2019-cu il 6 may tarixli 681 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli 476 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 44** **Bakı şəhəri, 9 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında" 2015-ci il 23 fevral tarixli 477 nömrəli, "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya şuralarının yaradılması haqqında" 2016-cı il 3 fevral tarixli 762 nömrəli, "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" 2016-cı il 22 iyun tarixli 940 nömrəli, "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında" 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli, "Sosial sığorta ehtiyatından istifadə Qaydası"nın və "Sığortaolunanlar üzrə xüsusi hesaba əlavə vəsaitlərin ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 12 sentyabr tarixli 1597 nömrəli, "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli, "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 10 dekabr tarixli 393 nömrəli, "Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 28 dekabr tarixli 448 nömrəli və "Dövlətə məxsus olan hüquqi şəxslərdə Apellyasiya şuralarının yaradılması haqqında" 2019-cu il 6 may tarixli 681 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli 476 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 24 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 125 (Cild I); 2024, № 1, maddə 90) ilə təsdiq edilmiş "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə vahid aylıq müavinətin ödənilməsi Qaydası"nın 3.2-ci bəndində "Elektron hökumət" portalında" sözləri "Elektron Hökumət İnformasiya Sistemində" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 iyul tarixli 327 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1349 (Cild I); 2024, № 3, maddə 314; 2025, № 5, maddə 507, № 9, maddə 858) ilə təsdiq edilmiş "İşaxtaran və işsiz şəxslərin qeydiyyata alınması Qaydası"nın 2.1-ci bəndində "Elektron hökumət" və ya "e-sosial" portallarının" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin və ya "e-sosial" portalının" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 avqust tarixli 349 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1456 (Cild I); 2025, № 5,maddə 507) ilə təsdiq edilmiş "İşədüzəlmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin reyestrinin aparılması qaydası və həmin hüquqi şəxslərə dair tələblər"in 2.3-cü bəndində "Elektron hökumət" və ya "e-sosial" portallarının" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin və ya "e-sosial" portalının" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 sentyabr tarixli 411 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1565 (Cild I); 2024, № 3, maddə 314; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Yeni iş yeri və ya boşalan iş yeri barədə məlumatların Elektron İnformasiya Sisteminə daxil edilməsi Qaydası və Forması"nın 2.1-ci bəndində "Elektron hökumət" və ya Nazirliyin "e-sosial" internet portallarından" sözləri "Elektron Hökumət İnformasiya Sistemindən və ya Nazirliyin "e-sosial" portalından" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 sentyabr tarixli 412 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1566 (Cild I); 2024, № 3, maddə 314; 2025, № 5,maddə 507) ilə təsdiq edilmiş "Əmək birjalarının və əmək yarmarkalarının təşkili və fəaliyyəti Qaydası"nın 4.2-ci bəndinin ikinci cümləsində "Elektron hökumət" və ya "e-sosial" portallarının" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin və ya "e-sosial" portalının" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin2020-ci il 16 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 69 (Cild l); 2024, № 5 (II kitab), maddə 587) ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası"nın 2.7-ci bəndində "Elektron hökumət" portalı" sözləri "Elektron Hökumət İnformasiya Sistemi" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli 244 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 974 (Cild I); 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyələşdirilməsi Qaydası"nın 2.2-ci bəndində "Elektron hökumət" və ya "e-sosial" portallarının" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin və ya "e-sosial" portalının" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 avqust tarixli 293 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 8, maddə 1110 (Cild I); 2025, № 2, maddə 196) ilə təsdiq edilmiş "Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının tərtib edilməsi Qaydası"nın 2.1.1-ci yarımbəndində və 3.1-ci bəndində "Elektron hökumət" portalında" sözləri "Elektron Hökumət İnformasiya Sistemində" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 4 noyabr tarixli 441 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1385 (Cild I) ilə təsdiq edilmiş "Xaricdə yaşayan aztəminatlı azərbaycanlılara sosial yardımın göstərilməsi Qaydası"nın 4.1-ci bəndinin birinci cümləsində "Elektron hökumət" portalında" sözləri "Elektron Hökumət İnformasiya Sistemində"sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 61 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 324 (Cild I); 2024, № 2, maddə 242; 2025, № 5, maddə 516, № 9, maddə 884) ilə təsdiq edilmiş "Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası"nın 2.1-ci bəndində "Elektron hökumət" sözləri "Elektron Hökumət İnformasiya Sistemində" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 dekabr tarixli 551 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 12 (II kitab), maddə 1456) ilə təsdiq edilmiş "Kvotadan əlavə iş yerlərinin yaradılması Qaydası"nın 2.3-cü bəndində "Elektron hökumət" və ya "e-sosial" portallarının" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin və ya "e-sosial" portalının" sözləri ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 dekabr tarixli 552 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 12 (II kitab), maddə 1457) ilə təsdiq edilmiş "Məqsədli proqramların həyata keçirilməsi Qaydası"nın 2.4-cü bəndində "Elektron hökumət" və ya "e-sosial" portallarının" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin və ya "e-sosial" portalının" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 iyul tarixli 352 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dəmiryol nəqliyyatı ilə sərnişinlərin, baqajın və yük-baqajın daşınması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 45** **Bakı şəhəri, 9 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 178-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 may tarixli 401 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 iyul tarixli 352 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 913; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 aprel tarixli 98 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dəmiryol nəqliyyatı ilə sərnişinlərin, baqajın və yük-baqajın daşınması Qaydaları"nın 3.31.12-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.31.12. dəmiryol nəqliyyatı vasitələrinin və daxili avadanlığının zədələnməsinə;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Milli Məclisin iclasında

# Azərbaycan regionun güclü dövlətinə çevrilib

**Fevralın 10-da spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirilib. Deputatlar əvvəlcə cari məsələrlə bağlı fikirlərini bildiriblər. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, cari məsələlərin müzakirəsi zamanı deputatlar Kamran Bayramov, Razi Nurullayev, Vüqar Bayramov, Aydın Hüseynov, Nurlan Həsənov, Rizvan Nəbiyev, Qüdrət Həsənquliyev, Fariz İsmayılzadə, Sahib Alıyev, Tural Gəncəliyev ictimai-siyasi həyatda baş verən proseslərlə bağlı fikirlərini bölüşüblər.**






Deputatlar bildiriblər ki, Prezident İlham Əliyevin siyasi iradəsi və strateji baxışları nəticəsində Cənubi Qafqazda sülh gündəliyi əsas prioritetə çevrilib. Azərbaycan və Ermənistanın siyasi liderlərinin davamlı təmasları dövlətlərarası normallaşma prosesinin ardıcıl və prinsipial xarakter aldığını göstərir. Qarabağ münaqişəsinə son qoyulması, bölgədə sülhün bərqərar olması, nəqliyyat dəhlizlərinin açılması regiona marağı əhəmiyyətli dərəcədə artırıb. Baş verən proseslər beynəlxalq təhlükəsizliyə, enerji marşrutlarına, yeni geosiyasi balansın formalaşmasına təsir göstərir. Bu baxımdan, ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vensin Ermənistana və Azərbaycana səfəri regionda sülh və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir, Azərbaycanla ABŞ arasında münasibətlərin daha da inkişafına şərait yaradır. Bu səfəri Azərbaycan və ABŞ prezidentləri arasında ötən il Vaşinqtonda, cari ildə isə Davosda aparılan siyasi dialoqun regionda davamı kimi qiymətləndirmək olar. Prezident İlham Əliyevin sülh gündəliyinin Prezident Donald Tramp tərəfindən müxtəlif beynəlxalq platformalarda yüksək qiymətləndirilməsi, habelə iki lider arasında mövcud olan etibarlı münasibətlər ikitərəfli siyasi əlaqələrin uğurunu şərtləndirən əsas amillərdəndir. Dövlət başçımızın qətiyyətli, prinsipial, milli maraqlara söykənən siyasəti nəticəsində Azərbaycan regional və beynəlxalq proseslərin müşahidəçisi yox, oyunun qaydalarını müəyyən edən tərəf kimi çıxış edir.

Çıxışlarda ölkəmizdə keçirilmiş növbədənkənar prezident seçkilərindən ötən müddət ərzində dövlət başçımızın rəhbərliyi ilə əldə edilən uğurlar, o cümlədən müşahidə olunan iqtisadi inkişaf, davamlı sosial islahatlar, sosial müdafiə tədbirlərinin reallaşması, habelə işğaldan azad edilmiş ərazilərimizdə bərpa və yenidənqurma işlərinin, burada vətəndaşların məskunlaşması prosesinin sürətlə davam etdirilməsi barədə söhbət açılıb. Vurğulanıb ki, Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasət nəticəsində ölkəmiz regionun etibarlı və güclü dövlətinə çevrilib.

Müzakirələr zamanı gündəmdə olan digər məsələlərə də toxunulub. O cümlədən, erməni separatçıları ilə bağlı bu günlərdə Bakıda verilən məhkəmə qərarları barədə səsləndirilən fikirlərdə, bu addım ölkəmizin qanun, nizam və sülh üzərində qurulan gələcək üçün çalışdığının göstəricisi kimi dəyərləndirilib. Bununla yanaşı, deputatlar seçiciləri narahat edən bir sıra məqamlara da münasibət bildiriblər.

Sonra parlamentin Sədri Sahibə Qafarova iclasda 12 məsələnin müzakirə olunacağını deyib. O, ilk məsələnin beynəlxalq sənədin təsdiq edilməsi ilə bağlı qanun layihəsi olduğunu və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanununun tələbinə uyğun olaraq bir oxunuşda qəbul ediləcəyini bildirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "İnformasiya və kommunikasiya texnologiyaları sistemlərindən istifadə etməklə törədilən müəyyən cinayətlərlə mübarizədə və ağır cinayətlərə aid olan sübutların elektron formada mübadiləsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi - Birləşmiş Millətlər Təşkilatının Kibercinayətkarlığa qarşı Konvensiyası"nın təsdiq edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. Qeyd edib ki, BMT-nin Kibercinayətkarlığa qarşı Konvensiyası bu sahədə cinayətkarlıqla mübarizədə qlobal səviyyədə vahid, hüquqi cəhətdən məcburedici beynəlxalq çərçivəni formalaşdırır. Azərbaycan Respublikası bu Konvensiyanın hazırlanması və qəbul edilməsi prosesində aktiv iştirak edib, çoxtərəfli danışıqlarda konstruktiv və prinsipial mövqe nümayiş etdirib.

Diqqətə çatdırılıb ki, 25 oktyabr 2025-ci il tarixində Hanoy şəhərində imzalanmış Konvensiyanın əsas məqsədi informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə törədilən cinayətlərlə mübarizədə dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi, habelə ağır cinayətlərə dair sübutların elektron formada toplanması, mübadiləsi və mühafizəsi üçün vahid hüquqi çərçivənin formalaşdırılması, həmçinin kibercinayətkarlıqla mübarizə sahəsində anlayışların vahid şəkildə müəyyən edilməsidir. Bildirilib ki, Konvensiya dövlət suverenliyinə və insan hüquqlarına hörmət edilməsini təmin edən hüquqi balans mexanizmlərini nəzərdə tutur. Cinayət təqibinin qanunçuluq, proporsionallıq və məhkəmə nəzarəti çərçivəsində həyata keçirilməsi Konvensiyanın əsas tələblərindən biridir. Sənədə əsasən, xarici rəqəmsal xidmət provayderləri və platformalarla əməkdaşlıq üçün hüquqi müəyyənlik yaradılır ki, bu da məlumatların qanuni əldə olunması və istifadəsi prosesini daha səmərəli edir.

Komitə sədri vurğulayıb ki, Konvensiya qəbul olunarsa, Azərbaycan Respublikası bu beynəlxalq sənədi ratifikasiya edən ilk dövlətlərdən biri, potensial olaraq isə ilk dövlət kimi çıxış edə bilər. Bu, ölkəmizin kibercinayətkarlıqla mübarizə sahəsində qabaqcıl və təşəbbüskar mövqeyini nümayiş etdirəcək.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev qeyd edib ki, BMT-nin Kibercinayətkarlığa qarşı Konvensiyası informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə törədilən cinayətlərin qarşısının alınması, aşkar edilməsi, araşdırılması və tətbiqi ilə dövlətlər üçün ümumi hüquqi standartları müəyyən edir. Bu Konvensiya dövlət suverenliyinə, konstitusion prinsiplərə və insan hüquqlarına hörmət edilməsini təmin edən hüquqi balans mexanizmlərini nəzərdə tutur. Cinayət təqibi tədbirlərinin qanunçuluq, proporsionallıq və məhkəmə nəzarəti çərçivəsində həyata keçirilməsi Konvensiyanın əsas tələblərindən biridir. Konvensiya qarşılıqlı hüquqi yardım prosedurlarının sadələşdirilməsini və standartlaşdırılmasını təmin etməklə hüquq-mühafizə orqanları arasında əməkdaşlığı sürətləndirir. Sənəddə institusional potensialın gücləndirilməsi ilə bağlı, ixtisaslaşdırma və təcrübə mübadiləsini təşviq edən mexanizmlər müəyyən edilir.

Komitə sədri Konvensiyanın ratifikasiyasının hüquq-mühafizə orqanlarının fəaliyyətini əhəmiyyətli dərəcədə gücləndirəcəyini deyib. Bu sənəd elektron sübutların əldə edilməsi, qorunması, elektron sübutlarla bağlı hüquqi qeyri-müəyyənlikləri aradan qaldırır və transmilli istintaqların effektivliyini artırır.

Arzu Nağıyev sənədin onun rəhbərlik etdiyi komitə tərəfindən müzakirə edildiyini və müsbət rəy verildiyini söyləyib.

Dana sonra Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin rəyini açıqlayan komitənin sədr müavini Nigar Arpadarai kibercinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinin önəmindən söhbət açıb. Bu baxımdan Azərbaycanın kibercinayətkarlıqla mübarizə sahəsində müxtəlif mexanizmlərə qoşulmasının zəruriliyini qeyd edib. Bildirilib ki, Konvensiyanın ratifikasiyası Azərbaycanın kibercinayətkarlıqla mübarizədə beynəlxalq öhdəliklərinə sadiqliyini nümayiş etdirir və bu sahədə hüquqi mexanizmlərin təkmilləşdirilməsinə mühüm töhfə verəcək.

Məsələ ətrafında müzakirələrdə parlamentin komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, Tahir Rzayev, deputatlar Vüqar Bayramov, Bəhruz Məhərrəmov, Hikmət Məmmədov, Nizami Səfərov çıxış edərək fikirlərini açıqlayıblar.

Sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri növbəti məsələnin - "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu və sənəddə təklif edilən dəyişikliklərin dəqiqləşdirmə xarakteri daşıdığını deyib. Spiker "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanununa uyğun olaraq, qanun layihəsinin bir oxunuşda qəbul ediləcəyini söyləyib.

Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov "Təhsil haqqında" Qanunda nəzərdə tutulan dəyişikliklərin mahiyyətini açıqlayıb. Bildirilib ki, "Təhsil haqqında" qanunun 14.8-1-ci maddəsinə əsasən, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Bununla yanaşı, qeyd olunub ki, Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli Qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi" Qaydasının 8.2-ci bəndinə əsasən, yenidənhazırlanma təhsili, təkrar ali, orta ixtisas və yüksək texniki peşə təhsili, dərəcələrin yüksəldilməsi, yaşlıların təhsili yalnız ödənişli əsaslarla həyata keçirilir və müvafiq maliyyə xərcləri kadrın çalışdığı təşkilat və yaxud kadrın özü tərəfindən ödənilir. Belə ki, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər üçün də əlavə təhsil ödənişlidir və onların təhsilinə dövlət büdcəsindən vəsait ayrılmır.

Bunu nəzərə alaraq, yuxarıda qeyd olunan normativ hüquqi aktlar arasında ziddiyyətin aradan qaldırılması məqsədilə "Təhsil haqqında" qanunun 14.8-1-ci maddəsi yeni redaksiyada təsbit edilir. Dəyişikliyə əsasən, sosial müdafiəyə xüsusi ehtiyacı olan burada göstərilən şəxslərin Azərbaycan Respublikasının təhsil müəssisələrində ödənişli əsaslarla təhsil (əlavə təhsil istisna olmaqla) aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş), Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Əhalinin sağlamlığının qorunması haqqında" və "Onkoloji yardım haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələri qəbul edilib.

Spiker Sahibə Qafarova gündəliyin növbəti 5 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu diqqətə çatdırıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, Birləşmiş Millətlər Təşkilatının Kibercinayətkarlığa qarşı Konvensiyasının tələblərinə uyğun olaraq, Cinayət Məcəlləsində "kompüter sistemi" ifadəsi "İKT sistemi", "kompüter məlumatları" isə "elektron verilənlər" terminləri ilə əvəz edilir. Eyni zamanda qanunvericiliyə "trafik verilənləri", "abunəçi məlumatları", "məzmun verilənləri" və "xidmət provayderi" kimi yeni hüquqi anlayışlar daxil edilir.

Cinayət-Prosessual Məcəlləsinə edilən əlavələr isə elektron sübutların toplanması prosesini tam hüquqi çərçivəyə salır. Buraya elektron verilənlərin əldə edilməsi, mühafizəsi və prosessual rəsmiləşdirilməsi qaydalarının müəyyən edilməsi, İKT sistemlərinə baxış, axtarış və götürmə tədbirlərinin hüquqi əsaslarının və hədlərinin dəqiqləşdirilməsi aiddir.

Bununla yanaşı, layihəyə əsasən, Cinayət-Prosessual Məcəlləyə "Məhkəməyədək icraatın elektron qaydada aparılması" və "Məhkəmə icraatının elektron qaydada aparılması" kimi yeni maddələr daxil edilərək həmin məsələlərin ətraflı tənzimlənməsi nəzərdə tutulur. Hazırda mövcud olan "Cinayət mühakimə icraatının elektron qaydada aparılması" adlı maddənin isə mətni genişləndirilərək yeni versiyada təqdim olunur. Həmçinin məhkəmə və prokurorluq arasında sənəd dövriyyəsinin "Elektron məhkəmə" və "Elektron prokurorluq" sistemləri vasitəsilə, gücləndirilmiş elektron imza ilə həyata keçirilməsi mexanizmi təsbit olunur.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Parlamentin Sədri Sahibə Qafarova növbəti iki məsələnin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə bağlı olduğunu deyib. Onun təklifi ilə həmin layihələrin təqdimatı və müzakirəsi birgə keçirilib.

Layihələr barədə parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova məlumat verib.

Gündəliyin doqquzuncu məsələsi olan "Uşaq hüquqları haqqında" qanun layihəsi (birinci oxunuş) ilə bağlı komitə sədri bildirib ki, mövcud qanundan fərqli olaraq, təqdim olunan layihə, uşaq hüquqlarının reallaşdırılması, müdafiəsi, monitorinqi və bərpası mexanizmlərini ətraflı tənzimləyir. Bu baxımdan yeni layihə funksional və icraedici normativ akt xarakteri daşıyır.

Yeni layihədə anlayışlar sistemi təsbit olunub. Təqdim olunan qanun layihəsində uşağın üstün mənafeləri prinsipinin tətbiqi qaydaları müəyyən edilib. Bundan başqa, yeni qanun layihəsində uşağa qarşı zorakılıq formalar üzrə təsnif edilir. Zorakılıq əlamətlərinin aşkar edilməsi zamanı onu bildirmə öhdəliyi təsbit olunur. Zorakılığa məruz qalmış uşağın müvafiq reabilitasiyası dövlətin birbaşa öhdəliyi kimi müəyyən edilir. Çətin həyat şəraitində olan uşaqlarla bağlı aşkarlanma mexanizmi, təcili tədbirlər, ilkin tibbi-psixoloji yardım və repatriasiya qaydası təsbit olunur. Eləcə də, layihədə onların hüquq və azadlıqları, həmin hüquq və azadlıqların həyata keçirilməsi sahəsində dövlət təminatları və dövlət nəzarətinin əsasları müəyyən edilir. Yeni layihədə uşaq inzibati və məhkəmə icraatında birbaşa iştirak hüququna malik subyekt kimi tanınır. Vurğulanıb ki, sənəd beynəlxalq hüquqi öhdəliklərə tam uyğundur və uşaq hüquqları sahəsində sistemli, mexanizm əsaslı və icraedici normativ-hüquqi baza yaradır.

Gündəliyin onuncu məsələsi olan Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Cinayət-Prosessual Məcəllədə, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) "Uşaq hüquqları haqqında" yeni qanun layihəsindən irəli gələrək hazırlanıb. Layihədə nəzərdə tutulan dəyişikliklər uşaqlarla bağlı ədalət mühakiməsinin həyata keçirilməsi zamanı onların üstün mənafelərinin nəzərə alınması, fərdi məlumatlarının qorunması, çətin həyat şəraitində olan uşaqların aşkar edilməsi mexanizmi, uşaqların zorakılıqdan qorunması ilə bağlı qanunvericilikdə yeni təminatların müəyyən edilməsinə imkan verəcək.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc hər iki qanun layihəsi ilə bağlı rəhbərlik etdiyi komitənin müsbət rəyini diqqətə çatdırıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov, Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov onuncu məsələ ilə bağlı təmsil etdikləri komitələrin müsbət rəylərini açıqlayıblar.

Müzakirələrdə komitə sədri Fazil Mustafa, deputatlar Razi Nurullayev, Bəhruz Məhərrəmov, Vüqar Bayramov, Qüdrət Həsənquliyev çıxış edərək, məsələ barədə öz fikir və təkliflərini səsləndiriblər.

Layihə səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxış edərək layihənin geniş və obyektiv müzakirəsinə görə deputatlara təşəkkürünü bildirib. Komitə sədri qanun layihəsinin hazırlanması prosesində aparılan araşdırmaları, eləcə də müvafiq qurumların və ictimaiyyətin rəy və təkliflərinin nəzərə alındığını diqqətə çatdırıb.

Növbəti məsələ - "Kinematoqrafiya haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu məlumat verib. Qeyd edilib ki, qanun layihəsi kino istehsalı sahəsində hüquqi tənzimləmənin müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına, anlayışların dəqiqləşdirilməsinə və dövlət dəstəyinin institusional mexanizmlərinin genişləndirilməsinə və investisiya cəlbediciliyinin artırılmasına xidmət edir.

Qanun layihəsində sahə üzrə anlayışların genişləndirilməsi və dəqiqləşdirilməsi nəzərdə tutulub ki, bu dəyişikliklər hüquqi qeyri-müəyyənliyi aradan qaldırır, normanın tətbiqində vahid yanaşmanı təmin edir və beynəlxalq kino hüququnda qəbul olunmuş terminologiya ilə uzlaşır. Dəyişikliklərdə xarici prodüserlərin Azərbaycan Respublikasının ərazisində film istehsalına cəlb edilməsi dövlət siyasətinin ayrıca istiqaməti kimi təsbit olunur, bu istiqamətdə təşviqedici mexanizmlər müəyyən edilir.

Komitə sədri vurğulayıb ki, layihənin qəbul edilməsi nəticəsində Azərbaycanda kinematoqrafiya sahəsində hüquqi tənzimləmə təkmilləşdiriləcək, beynəlxalq və birgə istehsal layihələrinin sayı artacaq, respublikamızın mədəni və yaradıcı potensialının beynəlxalq səviyyədə tanıdılması güclənəcək, dövlət və özəl sektor arasında əməkdaşlıq imkanları genişlənəcək.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasda mədəniyyət nazirinin müavini Fərid Cəfərov çıxış edərək, layihəyə verilən dəstəyə görə deputatlara təşəkkür edib. O, çıxışlarda deputatların səsləndirdiyi fikirlərin və təkliflərin əhəmiyyətini qeyd edib. Bildirib ki, layihə son illərdə bu sahədə müşahidə olunan yüksək dinamikanın qorunmasına, milli filmlərimizin beynəlxalq səviyyədə təqdim olunmasına, eyni zamanda ölkəmizdə xarici film istehsalının təşviqinə ciddi təkan verəcək.

Gündəliyin sonuncu məsələsi olan "Yol hərəkəti haqqında" və "Avtomobil yolları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. O bildirib ki, yol hərəkəti qaydalarının təkmilləşdirilməsi məqsədilə hazırlanan qanun layihəsində üç mühüm dəyişiklik təklif olunub. Birinci dəyişiklik "avtomagistral" anlayışının beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi ilə bağlıdır.

İkinci dəyişiklik cərimə meydançaları ilə bağlıdır. Qeyd olunub ki, mühafizə olunan duracağa gətirilmiş nəqliyyat vasitəsinin orada saxlanılması üçün haqqın nəqliyyat vasitəsinin mühafizə olunan duracağa gətirildiyi gündən sonrakı gün saat 00:00-dan etibarən hesablanması təklif olunub. Əgər nəqliyyat vasitəsinin mühafizə olunan duracağa aparılmasına səbəb olan inzibati qərar ləğv edilərsə, nəqliyyat vasitəsinin duracağa gətirilməsi və orada saxlanılması üçün ödənilmiş haqq nəqliyyat vasitəsinin sahibinə geri qaytarılır.

Üçüncü mühüm dəyişiklik ödənişli avtomagistrallarda sürət həddi ilə bağlıdır. Belə ki, sənəddə ödənişli avtomagistrallarda minik avtomobilləri və icazə verilmiş maksimum kütləsi 3,5 tondan artıq olmayan yük avtomobilləri üçün sürət həddinin saatda 130 kilometrdən, digər avtobuslar, qoşqu aparan minik avtomobilləri, icazə verilən maksimum kütləsi 3,5 tondan artıq olan yük avtomobilləri üçün isə saatda 90 kilometrdən çox olmayan həddə müəyyən edilməsi təklif olunur. Kamal Cəfərov bu sürət həddi limitlərinin beynəlxalq təcrübəyə uyğun olduğunu bildirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Azər Badamov layihə ilə bağlı təmsil etdiyi komitənin müsbət rəyini diqqətə çatdırıb.

Deputat Qüdrət Həsənquliyevin məsələ barədə fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bakıda İranın milli bayramı qeyd olunub





Fevralın 10-da İranın Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - İslam İnqilabının 47-ci ildönümü münasibətilə rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və İranın Dövlət himnləri səsləndirilib.

İslam Respublikasının ölkəmizdəki səfiri Müctəba Dəmirçilu bildirib ki, dost, qardaş və qonşu Azərbaycan Respublikası ilə münasibətlərin inkişafı İran İslam Respublikası üçün xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, iki ölkə arasındakı əlaqələr ortaq tarixi, mədəni, dini və dil yaxınlığına, eləcə də dərin qohumluq bağlarına əsaslanır və qarşılıqlı hörmət, mehriban qonşuluq və ortaq maraqlar prinsipləri üzərində qurulub. İran və Azərbaycan xalqları əsrlər boyu eyni coğrafi-mədəni məkanda formalaşaraq sıx və davamlı münasibətlər yaradıb.

Səfir bildirib ki, İran Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub və bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 34-cü ildönümü qeyd edilir. 1991-ci ilin dekabrında Azərbaycanın müstəqilliyinin tanınması, 1992-ci ilin martında isə Bakıda İran səfirliyinin fəaliyyətə başlaması ikitərəfli münasibətlərin möhkəm institusional əsaslar üzərində inkişafına və əməkdaşlığın genişlənməsinə mühüm töhfə verib.

Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev bildirib ki, Azərbaycan-İran münasibətləri mehriban qonşuluq, suverenliyə və ərazi bütövlüyünə qarşılıqlı hörmət, eləcə də qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında ardıcıl şəkildə inkişaf edir. Onun sözlərinə görə, ikitərəfli əlaqələrin möhkəmlənməsində hər iki ölkə prezidentlərinin nümayiş etdirdiyi siyasi iradə mühüm rol oynayır. Yüksəksəviyyəli qarşılıqlı səfərlər və müntəzəm dialoq isə münasibətlərin dinamik inkişafına və əməkdaşlıq gündəliyinin genişlənməsinə əhəmiyyətli töhfə verir.

Şahin Mustafayev qeyd edib ki, Azərbaycan və İran iqtisadiyyatın demək olar ki, bütün sahələrini əhatə edən geniş əməkdaşlıq əlaqələrinə malikdir. Nəqliyyat, enerji, ticarət, infrastruktur və kommunikasiya sahələrində birgə layihələr uğurla həyata keçirilir, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi və Şərqi Zəngəzur-Naxçıvan istiqamətində reallaşdırılan layihələr isə ikitərəfli əməkdaşlığın strateji xarakterini nümayiş etdirir. Bu istiqamətdə Hökumətlərarası Dövlət Komissiyasının fəaliyyəti və qarşılıqlı səfərlər əməkdaşlığın daha da dərinləşməsinə xidmət edir.

# Azərbaycan və ABŞ arasında ticarət və strateji əməkdaşlıq müzakirə edilib



Fevralın 10-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ Ticarət Palatasının baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, nümayəndə heyətinin tərkibinə 31 şirkətin rəhbər şəxsləri və nümayəndələri daxildir.

Görüş zamanı Azərbaycanla ABŞ arasında strateji tərəfdaşlıq əlaqələrinin təsis edilməsi istiqamətində atılan addımlar, ölkələrimiz arasında enerji, ticarət, nəqliyyat, logistika, TRIPP marşrutu da daxil olmaqla regional bağlantılar, bir sıra əhəmiyyətli sahələrdə iqtisadi sərmayə kimi istiqamətlərdə ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti, planlar və ABŞ-nin özəl sektoru ilə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Vaşinqton Sülh Sammitindən sonra "Strateji Tərəfdaşlıq Xartiyası"nın hazırlanması istiqamətində qeyd edilən sahələr üzrə ayrı-ayrılıqda aparılmış ikitərəfli təmaslar və müzakirələr yüksək qiymətləndirilib, imzalanacaq Xartiyanın münasibətlərə əlavə təkan verəcəyi vurğulanıb.

Bundan əlavə, görüşdə Azərbaycanın regionun enerji təhlükəsizliyində mühüm rolu, bərpaolunan enerji resurslarının inkişafının əhəmiyyəti, Orta dəhlizdə ticarət marşrutlarının şaxələndirilməsi, Azərbaycanda mövcud əlverişli biznes və investisiya mühiti və yeni əlaqələrin qurulması imkanları, habelə digər qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, dünən keçirilən iclası açan komitə sədri Azər Əmiraslanov gündəliyə 1 məsələnin - "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin daxil edildiyini bildirib.

Layihənin komitənin təşəbbüsü ilə hazırlandığını deyən Azər Əmiraslanov Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlardan, bu qanun layihəsini zəruri edən məqamlardan danışıb. Komitə sədri milli təhlükəsizliyin iqtisadi təhlükəsizliklə sıx bağlı olduğunu qeyd edərək, bu qanun layihəsinin ölkəmizdə iqtisadi təhlükəsizlik sahəsində mühüm tədbirlərin görülməsi üçün hüquqi əsasların yaradılmasına xidmət etdiyini diqqətə çatdırıb. Azərbaycanın xarici investisiyaların cəlb olunmasında ciddi uğurlar əldə etdiyini deyən komitə sədri bunun ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi sayəsində mümkün olduğunu qeyd edib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin də dediyi kimi, son iki onillik ərzində ölkəmizə 350 milyardlıq xarici investisiya cəlb edilib ki, bu da kifayət qədər böyük göstəricidir.

Sonra komitə sədri gündəlikdəki qanun layihəsi barədə məlumat verərək diqqətə çatdırıb ki, hazırda investisiyalar investordan dövlət tərəfindən iki əsasla - dövlət ehtiyacları üçün və rekvizisiya məqsədilə (təbii fəlakətlər, texnoloji qəzalar, epidemiyalar baş verdikdə və fövqəladə xarakter daşıyan digər hallarda müvafiq dövlət orqanlarının qərarı ilə cəmiyyətin mənafeləri üçün) alına bilər. Hər iki halda investisiyanın dəyəri bu qanunun 13.3-cü və 13.4-cü maddələrinə uyğun olaraq kompensasiya ödənişinin edilməsi yolu ilə investora ödənilir.

Təklif olunan dəyişiklik investisiyanın dövlət tərəfindən alınmasının yeni bir əsasını müəyyən edir. Bu, strateji əhəmiyyətə malik investisiyalara münasibətdə Azərbaycan dövlətinin və xalqının mənafelərinə zərər vuran və ya ölkəmizin milli maraqlarına zidd olan halların qarşısını almaq məqsədilə investisiyaların dövlət tərəfindən alınmasıdır.

Beləliklə, qanun layihəsi strateji əhəmiyyətə malik olan investisiyaların Azərbaycan dövlətinin və xalqının mənafelərinə zərər vuran və ya ölkəmizin milli maraqlarına zidd olan müstəsna halların qarşısını almaq məqsədilə dövlət tərəfindən alınmasının hüquqi əsasını formalaşdırır. Qeyd olunan məqsəd üçün investisiyaların alınması ümumi qaydada, yəni investisiyaların dövlət tərəfindən alınması əvəzində investorlara kompensasiya ödənilməklə həyata keçirilə bilər.

İclasda çıxış edən komitə üzvləri Aydın Hüseynov, Vüqar Bayramov, Ziyad Səmədzadə, Azər Badamov və Rövşən Muradov qanun layihəsinin əhəmiyyətindən danışıblar, qeyd və təkliflərini səsləndiriblər.

Müzakirələrin sonunda "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.

*"Azərbaycan"*

# Ərəb Parlamentinin prezidenti ölkəmizə səfərə gəlib



Ərəb Parlamentinin prezidenti Məhəmməd Əhməd Əl-Yammahi fevralın 10-da ölkəmizə rəsmi səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında Ərəb Parlamenti prezidentinin başçılıq etdiyi nümayəndə heyətini Milli Məclisin Sədr müavini Musa Qasımlı, protokol əməkdaşları və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Məhəmməd Əhməd Əl-Yammahinin ölkəmizin rəsmiləri ilə bir sıra görüşləri keçiriləcək, qaşılıqlı əlaqələrimizin gələcək inkişafı ilə bağlı fikir mübadiləsi aparılacaq.

*"Azərbaycan"*

# "Nəqliyyatla bağlı gömrük məsələləri üzrə Qlobal Forum"un sessiyası və Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Gömrük Xidməti Rəhbərlərinin iclası keçirilib




İsveçrə Konfederasiyasının Cenevrə şəhərində BMT-nin Avropa İqtisadi Komissiyasının (UNECE) "Nəqliyyatla bağlı gömrük məsələləri üzrə Qlobal Forum"unun 171-ci sessiyası öz işinə başlayıb.

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən verilən məlumata görə, sessiya çərçivəsində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Gömrük Xidməti Rəhbərlərinin növbədənkənar iclası keçirilib.

Tədbirlərdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edir.

UNECE-nin "Nəqliyyatla bağlı gömrük məsələləri üzrə Qlobal Forum"unun 171-ci sessiyasında "BYD Kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında" Gömrük Konvensiyasına yenidən baxılması, "Sərhədlərdə yüklərin nəzarətdən keçirilməsi şərtlərinin razılaşdırılması haqqında" Beynəlxalq Konvensiyanın tətbiqi məsələləri, qlobal forum tərəfindən idarə olunan digər konvensiyalar və hüquqi alətlər, o cümlədən BYD üzrə Beynəlxalq Məlumat Bankı və informasiya texnologiyaları sahəsində digər layihələr müzakirə edilir.

UNECE və Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (IRU) nümayəndələrinin iştirakı ilə keçirilən TDT üzv dövlətlərin Gömrük Xidməti Rəhbərlərinin iclasında isə Bakıda imzalanmış TDT regionunda BYD Konvensiyasına uyğun olaraq eTIR prosedurunun tətbiqi üçün Fəaliyyət Planının ("Yol Xəritəsi") və Səmərqənddə imzalanmış "Türk Dövlətləri Təşkilatının Hökumətləri arasında Sadələşdirilmiş Gömrük Dəhlizinin Yaradılması haqqında Saziş"in həyata keçirilməsinə dair, həmçinin TDT regionunda eCMR-in (Beynəlxalq Yol ilə Mal Daşınması Müqaviləsi haqqında Konvensiya) tətbiqi ilə bağlı müzakirələr aparılıb. İclasda çıxış edən Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov tədbirin türk dövlətləri arasında regional inteqrasiyanın, gömrük işi sahəsində qarşılıqlı əməkdaşlığın inkişafında yeni imkanlar yaradacağını diqqətə çatdırıb, eyni zamanda üzv dövlətlər arasında gömrük və logistika istiqamətlərində də qarşılıqlı etimad və dostluq münasibətlərinə əsaslanan çoxşaxəli əməkdaşlıqdan məmnunluqla bəhs edib.

Qeyd edək ki, BMT-nin Avropa İqtisadi Komissiyasının (UNECE) "Nəqliyyatla bağlı gömrük məsələləri üzrə Qlobal Forum"unun 171-ci və sabah öz işinə başlayacaq BYD Konvensiyasının İnzibati Şurasının 87-ci sessiyaları fevralın 13-dək davam edəcək.

# Roma Papası Azərbaycana dəvət olunub



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi Azərbaycandakı dini konfessiya nümayəndə heyəti fevralın 9-da Vatikanda bir sıra görüşlərdə iştirak edib.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyəti əvvəlcə Roma Papası XIV Leo ilə görüşüb.

Qonaqları salamlayan Papa XIV Leo Azərbaycandakı dini konfessiyaların birgə səfərini sülh və insan qardaşlığı nümunəsi kimi dəyərləndirib.

A.Paşazadə Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın salamlarını çatdırıb, Azərbaycan-Vatikan əlaqələrinin yüksək səviyyəsini vurğulayıb. O, həmçinin mərhum Papa Fransiskin Azərbaycana səfərini və dini konfessiyaların rəhbərləri ilə görüşünü xatırladıb, bu görüşün də çox əlamətdar olduğunu bildirib. Qeyd edib ki, dövlət səfərləri və dini ictimaiyyət nümayəndələri ilə görüşlər Azərbaycanla Müqəddəs Taxt-Tac arasında münasibətləri və dinlərarası dialoqu gücləndirir. QMİ sədri Vatikanda nümayəndəliyin təsis olunmasının bu prosesə töhfə verəcəyini bildirib.

Şeyxülislam Bakıda inşa olunan ikinci katolik kilsəsinin açılışında Papa XIV Leonun da iştirakını arzulayıb. Həmçinin 2027-ci ildə Azərbaycan-Vatikan diplomatik münasibətlərinin 35 illiyi və Heydər Əliyev ilə Papa II İohann Pavelin ilk görüşünün 30 illiyi münasibətilə Roma Papasını ölkəyə dəvət edib. Bununla əlaqədar QMİ sədri Azərbaycandakı Dini Konfessiyaların Məşvərət Şurası adından dəvət məktubunu XIV Leoya təqdim edib.

Görüş zamanı Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Yepiskop Vladimir Fekete Azərbaycandakı dinlərarası münasibətlərin yüksək səviyyəsindən, Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev etnik-dini harmoniya mühitindən, Alban-udi Xristian Dini İcmasının sədri Robert Mobili alban-udi irsinin qorunmasından, Sefarad yəhudiləri Bakı icmasının rəhbəri Zamir İsayev isə tolerantlıq mühitindən danışıblar. Azərbaycan dinlərinin tarixi, dini abidələri və tolerantlıq mühiti barədə nəşrlər Papa XIV Leoya hədiyyə edilib.

Nümayəndə heyəti, həmçinin Vatikanın Dövlət katibi Kardinal Pyetro Parolin və Müqəddəs Taxt-Tacın Şərq kilsələri üzrə dikasteriyasının prefekti Kardinal Klaudio Qucerotti ilə də görüşüb.

Şeyxülislam A.Paşazadə Heydər Əliyev Fondunun Vatikandakı katakombaların bərpası, muzey və kitabxana əməkdaşlığı, həmçinin Bakıda yeni katolik kilsəsinin tikintisinin multikultural siyasətin nümunəsi olduğunu vurğulayıb. Dinlərarası dialoqun vacibliyi, Azərbaycan-Ermənistan sülh prosesinin əhəmiyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub. Şeyxülislam A.Paşazadə Azərbaycanın sivilizasiyalararası dialoq və dinlərarası əməkdaşlıq prosesində fəal iştirakını, həmçinin Vatikanda martın 9-da keçiriləcək iftar mərasimində Roma Papasının müraciətinin əhəmiyyətini qeyd edib. QMİ sədri, həmçinin işğaldan azad olunmuş ərazilərdə dini və mədəni irsin bərpası, məscid, kilsə və məbədlərin yenidən inşası barədə məlumat verib.

# Ekspert Azərbaycanı regional məsələlərdə ABŞ-nin əsas tərəfdaşına çevirən amilləri göstərib

"Bu gün ABŞ Azərbaycanı regional və qlobal təhlükəsizlikdə əsas tərəfdaş kimi görür".

Beynəlxalq münasibətlər üzrə israilli ekspert Mixail Finkel bu barədə AZƏRTAC-ın saytında yayımlanan "Azərbaycan və Dünya" proqramının son bölümündə bildirib.

Onun sözlərinə görə, bu, həm ölkənin daxili sabitliyi, həm də balanslaşdırılmış xarici siyasəti ilə bağlıdır. Finkel Azərbaycan dövlətinin dünyəvi təbiətinin əsas rolunu, ölkə rəhbərliyinin radikalizm və fanatizmin hər hansı bir formasının qarşısını almağa yönəlmiş ardıcıl siyasətini qeyd edərək vurğulayıb ki, bu model Azərbaycanı regiondakı bir çox digər dövlətdən fərqləndirir. Ekspert həmçinin qeyd edib ki, Bakının davamlı inkişafa və sürətlə tərəqqi edən ölkələr sırasına inteqrasiyaya doğru seçdiyi kurs onu Qərb, o cümlədən ABŞ üçün etibarlı və proqnozlaşdırıla bilən tərəfdaşa çevirir. Onun fikrincə, artan beynəlxalq qeyri-sabitlik şəraitində regional təhlükəsizliyin sütunlarına çevrilən məhz belə dövlətlərdir.

M. Finkel daha sonra bildirib ki, ABŞ vitse-prezidentinin Ermənistan və Azərbaycana səfəri Vaşinqtonun Cənubi Qafqaz ölkələri ilə dialoqu möhkəmləndirməsinin vacib bir siqnalıdır. Onun sözlərinə görə, Birləşmiş Ştatların ikinci ən yüksəkvəzifəli rəsmisinin səfərinin özü yüksək etimad və hörmət səviyyəsini nümayiş etdirir.

Ekspert xatırladıb ki, ABŞ Prezidenti Donald Tramp əvvəllər Azərbaycan Prezidenti İlham Əliyevə xüsusi diqqət və hörmət nümayiş etdirib və bu, qlobal siyasəti yaxından izləyən hər kəs tərəfindən qeyd edilib.

Analitikin fikrincə, bu, yaxın gələcəkdə Azərbaycanın ABŞ və Qərblə əməkdaşlığının genişləndirilməsi üçün möhkəm təməl yaradır. Finkel vurğulayıb ki, bu cür əlaqələr uzunmüddətli siyasi etimad arxitekturasını formalaşdırır və məsuliyyətli regional tərəfdaş kimi Bakının rolunu gücləndirir.

# Azərbaycanın xarici siyasətinin uğurları

Fevralın 9-da Azərbaycanın iqtisadi gündəmində ən mühüm hadisələrdən biri Prezident İlham Əliyevin ABŞ Ticarət Palatasının geniş tərkibli nümayəndə heyətini qəbul etməsi oldu. Dünyanın ən nüfuzlu biznes federasiyasını təmsil edən 31 nəhəng şirkətin 60-dan çox nümayəndəsinin Bakıya gəlişi Azərbaycanın beynəlxalq investisiya mühitindəki strateji çəkisini bir daha nümayiş etdirdi.



## ABŞ biznesinin yeni ünvanı Azərbaycandır

### Nüfuzlu investorların və biznes nəhənglərinin ölkəmizə marağı böyükdür

Görüşdə enerji sektorundan süni intellektə qədər geniş diapazonu əhatə edən əməkdaşlıq imkanları müzakirə olundu ki, bu da iki ölkə arasındakı iqtisadi əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu göstərir. Tərkibində enerji, texnologiya, maliyyə və nəqliyyat kimi önəmli sahələri təmsil edən aparıcı şirkətlərin yer aldığı biznes qurumunun ölkəmizə marağı Azərbaycanın etibarlı iqtisadi tərəfdaş olduğunu təsdiqləyir.

Bu həm də Azərbaycanın qlobal iqtisadiyyatdakı rolunun yenidən müəyyən edilməsi deməkdir. Eyni zamanda Azərbaycanın artıq regionda, sadəcə, enerji ixracatçısı kimi yox, texnologiya nəhənglərinin və investisiyaların toplandığı rəqəmsal və logistik hab kimi tanınmasının təzahürüdür. Görüşdə aparılan müzakirələr Azərbaycanın beynəlxalq investisiyalar üçün təhlükəsiz və açıq bir liman olduğunu, ənənəvi neft-qaz ölkəsindən rəqəmsal və "yaşıl enerji" mərkəzinə keçid etmək strategiyasını ortaya qoyur.

Prezident İlham Əliyev qonaqları qəbul edərkən vurğulayıb ki, ölkəmizdə çox müsbət biznes mühiti mövcuddur. Dövlət başçısı qeyd edib ki, son iki onillik ərzində ölkəmizə 350 milyard dollarlıq sərmayə cəlb olunub. Bu, Azərbaycanın son 20 ildə keçdiyi iqtisadi yolun ən mühüm statistik göstəricisidir. Bu həm də, sadəcə, bir rəqəm deyil, ölkənin beynəlxalq miqyasda etibarlı tərəfdaş imicinin maliyyə təsdiqidir. Eyni zamanda bu nəhəng kapital həm də gələcəkdə süni intellekt və "yaşıl enerji" sahələrinə yönələcək yeni sərmayə dalğası üçün möhkəm bünövrə rolunu oynayır.

Azərbaycan tərəfi Vaşinqtonla münasibətlərdə konkret iqtisadi nəticələrə söykənən "Strateji Tərəfdaşlıq Xartiyası"na üstünlük verir. Bu sənədin əsas sütunlarından biri də məhz süni intellekt və yüksək texnologiyalar sahəsidir. Prezident də bəyan edib ki, ABŞ rəhbəri Donald Trampla imzalanmış sənəd əməkdaşlığın hüquqi bazasını möhkəmləndirib. Ölkəmizin gələcək inkişaf modeli yalnız xammal ixracına deyil, həm də texnoloji mərkəzə çevrilməyə əsaslanır. Bu məqama diqqət yönəldən dövlət başçısı qeyd edib ki, Azərbaycanın məqsədi qlobal süni intellekt qovşaqlarından birinə çevrilməkdir: "Enerji, ticarət, investisiyalardan ibarət olan ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, biz indi rəqəmsal transformasiya, süni intellektə aid çox vacib sahələr üzərində çalışırıq və ümid edirik ki, Amerika şirkətləri bizim əsas tərəfdaşlarımız olacaq. Artıq yaxşı təmaslarımız var".

Prezidentin çıxışında vurğulanan enerji və data mərkəzləri arasındakı əlaqə də strateji mesaj daşıyır: "Biz təbii qazı boru kəmərləri ilə 16 ölkəyə ixrac edirik və qazın boru kəməri ilə təchizatı nöqteyi-nəzərindən dünyada birinci yerdəyik. Lakin bununla yanaşı, biz süni intellekt və rəqəmsal transformasiya sahəsində tərəfdaşlarımızın olması üçün Amerika və digər ölkələrdən olan aparıcı şirkətləri cəlb etmək məqsədilə buradakı enerji potensialımızdan istifadə etmək istəyirik". Bu, Azərbaycanın iqtisadi modelində köklü dəyişikliyin elanıdır. Həmçinin neft-qazdan əldə edilən kapitalın texnologiya sahəsinə yönəldilməsinin hədəflənməsidir.

Süni intellekt və data mərkəzləri böyük miqdarda elektrik enerjisi tələb edir. Azərbaycanın 2 giqavatlıq mövcud və 2032-ci ilə qədər planlaşdırılan 7-8 giqavatlıq "yaşıl enerji" potensialı bu mərkəzlər üçün ideal zəmin yaradır. Bu, strateji bir gedişdir. Dünyada süni intellektin inkişafı üçün ən böyük maneə enerji qıtlığıdır. Prezident mesaj verir ki, bizdə həm enerji var, həm də infrastruktur.

Dövlət başçısı əlavə edib ki, hazırda üzərində işlənilən layihələrdən biri də Azərbaycandan Avropaya Qara dəniz vasitəsilə kabel xəttinin, həmçinin TRIPP layihəsi ilə ötürücü xətlərin, mövcud olanlardan əlavə, yeni ötürücü xətlərin çəkilməsidir. Yəni TRIPP marşrutu ilə yalnız yüklər deyil, həm də fiber-optik kabellər və enerji xətləri keçəcək ki, bu da Azərbaycanı Şərqlə Qərb arasında rəqəmsal körpüyə çevirəcək.

ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksi də vurğulayıb ki, palata Azərbaycanda fəaliyyətini genişləndirməyi planlaşdırır. O qeyd edib ki, palatanın Azərbaycandakı fəaliyyəti iki il əvvəl COP çərçivəsində ölkəyə nümayəndə heyətinin gətirilməsi ilə başlayıb. Baş vitse-prezident deyib ki, Azərbaycan COP-u uğurla təşkil edib və tədbir çərçivəsində dünyanın hələ də ehtiyac duyduğu ənənəvi enerji mənbələri ilə yanaşı, bərpaolunan enerji mənbələrinə də xüsusi diqqət yetirilib. Çoksi bildirib ki, Azərbaycan bazarlarında fəaliyyət göstərməyin bir sıra mühüm üstünlükləri mövcuddur və bu üstünlüklərdən birincisi ölkənin hazırkı inkişaf mərhələsidir. Azərbaycan Şərqlə Qərb arasında yerləşən mühüm birləşdirici mərkəzdir və Avropanın enerji ehtiyacları fonunda enerji, nəqliyyat marşrutları, logistika, istehsal və şimal-cənub əlaqələri baxımından strateji əhəmiyyət daşıyır.

Çoksinin bəyanatları Azərbaycanın regional statusunun enerji ixracatçısı modelindən qlobal rəqəmsal və logistik hab modelinə keçidini rəsmiləşdirir. Amerika biznesi Azərbaycanı yalnız resurs mənbəyi kimi yox, digər regionların giriş qapısı kimi qəbul edir. ABŞ şirkətləri üçün Azərbaycan həm stabil neft-qaz təchizatçısı, həm də gələcəyin "yaşıl hidrogen" və bərpaolunan enerji mərkəzidir. Məhz COP29 çərçivəsində qoyulan təməllər artıq konkret biznes maraqlarına çevrilir. Ticarət Palatası Azərbaycanın iqtisadiyyatını yalnız neftlə məhdudlaşdırmır, turizm kimi sektorları da prioritet hesab edir. Eyni zamanda vurğulanır ki, Azərbaycan qlobal təchizat zəncirlərinin genişlənməsində, o cümlədən kritik minerallar, neft və qaz məhsulları, fiber-optik xətlər, regional və rəqəmsal əlaqələndirmə sahələrində mühüm rol oynaya bilər.

Nəticə etibarilə ABŞ Ticarət Palatasının geniş nümayəndə heyətinin Bakıya gəlişi bir daha təsdiqlədi ki, Azərbaycan, sadəcə, resurs bazası deyil, həm də süni intellekt, "yaşıl enerji" və rəqəmsal tranzit sahəsində mühüm strateji tərəfdaşdır. Donald Tramp administrasiyası ilə qurulan realist və praqmatik əməkdaşlıq formatı, xüsusilə "Strateji Tərəfdaşlıq Xartiyası" və TRIPP layihəsi regionun iqtisadi xəritəsini yenidən cızır. Azərbaycan enerji bolluğunu texnoloji intibahla birləşdirərək, Şərqlə Qərb arasında təkcə yüklərin deyil, həm də ideyaların və innovasiyaların daşındığı ən etibarlı liman kimi gələcəyə addımlayır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

## Bakıda dünyaşöhrətli fotojurnalist Reza Deqatinin "Yüksələn işıq" sərgisi açılıb

Heydər Əliyev Beynəlxalq Aeroportunda dünyaşöhrətli fotojurnalist Reza Deqatinin "Yüksələn işıq" adlı sərgisi açılıb.









AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva sərgini ziyarət edib.

Reza Deqati Leyla Əliyevaya sərgi ilə bağlı ətraflı məlumat verib.

Qeyd edək ki, "Yüksələn işıq" sərgisi Reza Deqatinin (www.instagram.com/rezaphotography/) obyektivindən Azərbaycanın vətəndaşlarını, təbiətini, adət-ənənələrini və gündəlik həyatının incə ahəngini əks etdirir. Bu fotolar təkcə görüntü deyil, ölkənin ruhunu və işığını əks etdirən canlı hekayələrdir.

"Azərbaycan Hava Yolları" QSC (AZAL) üçün bu sərgi səyahətin əsl mahiyyətini kəşf etməyi, ünsiyyəti və mədəniyyətlər arasında körpülər qurmaq gücünü ifadə edir. Reza Deqatinin fotoları müxtəlif taleləri və hekayələri bir-birinə yaxınlaşdırdığı kimi, aviasiya da məsafələri aradan qaldıraraq insanları və ölkələri birləşdirir. Bu sərgi səyahətin təkcə uçuşla deyil, həmçinin ilhamla başladığını xatırladır.

"Yüksələn işıq" sərgisi AZAL, "Boeing" və Heydər Əliyev Beynəlxalq Aeroportunun birgə tərəfdaşlığı ilə reallaşdırılıb. Bu tərəfdaşlıq "Azərbaycan Hava Yolları" QSC ilə "Boeing" arasında uzunmüddətli və strateji əməkdaşlığın bir hissəsidir, həmçinin müasir aviasiya texnologiyalarının tətbiqi, uçuş təhlükəsizliyinin və sərnişin rahatlığının artırılması, eləcə də Azərbaycanın qlobal aviasiya məkanındakı mövqeyinin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Sərgi insanları, məkanları və mədəniyyətləri birləşdirən görünməz bağlardan bəhs edir. Məhz bu baxış bucağı ilə AZAL Azərbaycanı dünya ilə qovuşdurur, səyahətləri sadə marşrutlardan kənara çıxararaq yaddaqalan, mənalı hekayələrə çevirir.

## TRIPP artıq reallıqdır

### Azərbaycanla ABŞ arasında siyasi-iqtisadi əlaqələr yeni mərhələyə keçir

Yeni dünya düzəninin qurulması prosesi qlobal güclərin Cənubi Qafqaz regionuna olan marağını artırıb. Xüsusən Ermənistanla Azərbaycan arasında müharibənin başa çatması, aparılan sülh danışıqları bölgəmizi geniş əməkdaşlıq platformasına çevirib.

Bu səbəbdən ABŞ-nin bölgənin logistika imkanlarından bəhrələnərək dünya ticarətinə töhfə vermək siyasəti gündəmə gəlib və Amerikanın vasitəçiliyinin qərəzsiz olması iki ölkə arasında kommunikasiyaların açılması barədə müqavilə bağlanması ilə nəticələnib. Ötən ilin avqustunda Vaşinqtonda imzalanan sənəd qlobal ticarətdə yeni bir təhlükəsiz marşrutun yaranmasında da önəmli rol oynayıb. Yeri gəlmişkən qeyd edək ki, açılacağı artıq şübhə doğurmayan Zəngəzur dəhlizi (TRIPP) əlavə 15 milyon ton yükün digər marşrutlarla müqayisədə daha qısa müddətdə alıcıya çatdırılmasına imkan verəcək.

Prezident İlham Əliyev fevralın 9-da ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən Azərbaycanın logistika imkanları və Zəngəzur dəhlizinin əhəmiyyəti barədə demişdir: "Biz bağlantıları da diqqət mərkəzində saxladığımız mühüm sahələrdən biri hesab edirik. Nəqliyyat və logistika infrastrukturumuzu lazımi səviyyəyə çatdırmaq üçün indiyədək çox işlər görülüb. Hazırda bizim dəniz limanımızın yükaşırma qabiliyyəti 15 milyon tondur və onun genişləndirilməsi yükaşırma qabiliyyətini 25 milyon tona gətirib çatdıracaq. Dəmir yollarımız müasirləşdirilir. Ermənistan ərazisindən keçəcək və sonra Orta dəhlizin daha bir davamına çevriləcək yeni dəmir yolu tikilir. Doqquz beynəlxalq hava limanı, regionda ən böyüklərdən biri, bəlkə də ən böyük olan yükdaşıma hava yolu şirkəti - bütün bunlar artıq bir üstünlükdür".

Donald Tramp administrasiyası ilə Azərbaycan rəhbərliyi arasında yaranan səmimi və etibarlı dostluq əlaqələri ölkəmizə və regionumuza sülh və iqtisadi inkişaf vəd edir. Amerika şirkətləri artıq siyasi sabitliyin, iqtisadi inkişafın mövcud olduğu Azərbaycana investisiya qoymaqda maraqlıdır. Qarşılıqlı iqtisadi əməkdaşlıq, sərmayələrin yatırılması Azərbaycanla ABŞ arasında siyasi əlaqələrin də inkişafına təkan verib. Amerika kimi bir supergüc olan dövlətlə qarşılıqlı maraqlar üzərində qurulan bu əlaqələr regionda pozuculuq fəaliyyəti ilə məşğul olmaq istəyən məlum ölkələrə ciddi xəbərdarlıqdır.

Cənubi Qafqazda möhkəmlənmək üçün ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vensin Ermənistana və Azərbaycana səfərinin tarixi əhəmiyyəti var. Bu səfər bütün tərəflərə iki qonşu ölkənin Amerikanın tərəfdaşı olması barədə göndərilən siyasi mesajıdır. Xüsusən ABŞ-nin Azərbaycanla siyasi-iqtisadi əlaqələrlə yanaşı, hərbi sahədə də əməkdaşlıq etmək istəyi bizim üçün çox önəmlidir.



ABŞ-nin vitse-prezidenti C.D.Vensin İrəvanda verdiyi bəyanatdan məlum olur ki, qonşu ölkənin enerji müstəqilliyini təmin etmək ABŞ-nin əsas hədəfidir. Məlumdur ki, Ermənistan bu sahədə Rusiyadan ciddi şəkildə asılıdır və şimal qonşumuz bundan vaxtaşırı təzyiq vasitəsi kimi istifadə edir. ABŞ bu problemi aradan qaldırmaq üçün Ermənistanın nüvə energetika sektoruna 9 milyard dollar həcmində sərmayə yatıracaq. Bu da ona kiçiktutumlu reaktorlar (SMR) əldə etməyə imkan yaradacaq. Amerika rəsmisi bəyan edib ki, belə texnologiya hər bir ölkə ilə paylaşılmır, bu, Ermənistana edilən xüsusi bir jestdir.

Onu da vurğulayaq ki, qonşu ölkədəki atom elektrik stansiyası sovetlər dönəmində inşa edilmişdir və sonrakı illərdə o, Rusiya mütəxəssisləri tərəfindən təmir olunmuşdur. İndi Ermənistanın bu sahədə ənənəvi tərəfdaşından imtina etməsi həm də rəsmi İrəvanın siyasi kursunun hansı istiqamətə yönəldiyini göstərir.

Məlumdur ki, Ermənistanda parlament seçkilərinə çox zaman qalmayıb. Bu səbəbdən ölkədə siyasi hərarət getdikcə qızışır. N.Paşinyan iqtidarına qarşı olan revanşist qüvvələr və kilsə birləşərək seçkilərdə mövcud hakimiyyəti dəyişmək istəyirlər. Şimal qonşumuz da bu qüvvələrə açıq və ya dolayısı ilə dəstək verir. O üzdən Paşinyan iqtidarının ABŞ kimi bir qüdrətli dövlətin dəstəyinə ehtiyacı var. Başqa sözlə, ABŞ vitse-prezidentinin bu səfəri lap yerinə düşüb.

Ermənistandan fərqli olaraq Vensin Azərbaycanda aparacağı danışıqlarda müzakirələrin mövzusu və dairəsi daha geniş olacaq. İlk növbədə iqtisadi sahədə müzakirə ediləcək çox məsələlər var. Yəni Azərbaycanın iqtisadi potensialı hər iki ölkəyə fayda verə biləcək qədərdir. Prezident İlham Əliyev ABŞ Ticarət Palatasının nümayəndələri ilə görüşü zamanı demişdir: "Beləliklə, enerji, ticarət, investisiyalardan ibarət olan ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, biz indi rəqəmsal transformasiya, süni intellektə aid çox vacib sahələr üzərində çalışırıq və ümid edirik ki, Amerika şirkətləri bizim əsas tərəfdaşlarımız olacaq. Artıq yaxşı təmaslarımız var və yeri gəlmişkən, siz bizim hökuməti təmsil edən nümayəndə heyətlərinin birinin səfəri zamanı bu barədə qeydlərinizi bildirdiniz. Rabitə, süni intellekt, data mərkəzlərinin yaradılması sahəsində fəaliyyət göstərən şirkətlərlə geniş bir görüş oldu. İndi bu, bizim üçün prioritet məsələlərdən biridir. Hesab edirəm ki, bizim çoxlu üstünlüklərimiz var".

Görünən odur ki, hazırda ABŞ-nin marağında Ermənistanla Azərbaycan arasında sülhün dayanıqlı olmasıdır. Belə olarsa, Vaşinqton Cənubi Qafqazda möhkəmlənərək Mərkəzi Asiyada da nüfuzunu artıra biləcək. Beləliklə, ABŞ geniş bir coğrafiyada özünün siyasi və iqtisadi maraqlarını təmin edəcək. Bu da Donald Tramp administrasiyasının apardığı xarici siyasətin üç təməl prinsipinə - iqtisadi inkişaf, qlobal ticarət dəhlizlərinə nəzarət və təhlükəsizlik siyasətinə tam uyğundur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Azərbaycan və ABŞ arasında yeni strateji mərhələnin başlanğıcı

Son dövrlərdə Azərbaycan və Amerika Birləşmiş Ştatları arasındakı yüksəksəviyyəli təmasların artması ikitərəfli münasibətlərdə yeni mərhələnin başlanması kimi xarakterizə edilir. Bu mərhələ siyasi münasibətlərin möhkəmləndirilməsi ilə yanaşı, iqtisadi əməkdaşlığın da ön plana çıxması baxımından əhəmiyyətlidir.



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İqtisadi təhlil şöbəsinin baş məsləhətçisi İlkin Qasımov açıqlamasında bildirib ki, ABŞ vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycana rəsmi səfərindən öncə ABŞ Ticarət Palatasının nümayəndə heyətinin Bakıya gəlməsi və Prezident İlham Əliyev tərəfindən qəbul edilməsi də çox əhəmiyyətlidir: "Prezident İlham Əliyevin görüş zamanı səsləndirdiyi əsas fikirlər Azərbaycan-ABŞ iqtisadi münasibətlərinin növbəti mərhələsinin konseptual çərçivəsini aydın şəkildə izah edir. Dövlətimizin başçısının ölkədəki siyasi sabitliyi, həmçinin ardıcıl şəkildə həyata keçirilən islahatları, o cümlədən hüquqi bazanın təkmilləşdirilməsi sahəsində görülən işləri xüsusi vurğulaması ABŞ biznes dairələri ilə uzunmüddətli əməkdaşlıq üçün lazım olan etibarlı mühitin mövcudluğunun ən yüksək səviyyədə bəyanıdır. Bu, xüsusilə qlobal qeyri-müəyyənliklərin artdığı bir dövrdə strateji əhəmiyyət daşıyır".

İ.Qasımov qeyd edib ki, ABŞ Ticarət Palatasının nümayəndə heyəti ilə görüşün əsas diqqətçəkən məqamlarından biri də ikitərəfli iqtisadi əlaqələrin şaxələndirilməsi ilə bağlı fikirlərin səsləndirilməsidir. Bu vaxta qədər ABŞ şirkətləri əsasən Azərbaycanın neft-qaz sektorunda daha güclü mövqelərə sahib idilərsə, növbəti mərhələdə yeni əməkdaşlıq istiqaməti olaraq qeyri-neft sektoru, o cümlədən texnologiya, bərpaolunan enerji, rəqəmsal transformasiya və süni intellekt kimi sahələr əsas istiqamətlər olaraq təqdim edilir. Bu potensial əməkdaşlıq imkanlarını artırmaqla yanaşı, Azərbaycanın müasir iqtisadi modelinin bilik və texnologiyaya transformasiya yolunda sürətlə irəliləməsini göstərir. Prezident İlham Əliyevin ölkənin əlverişli coğrafi mövqeyini və beynəlxalq nəqliyyat dəhlizlərində artan rolunu qeyd etməsi ABŞ şirkətlərinin Azərbaycanı yalnız lokal bazar olaraq deyil, eyni zamanda daha geniş regionlara çıxış qapısı olaraq görməsinə şərait yaradacaq.

Baş məsləhətçi vurğulayıb ki, Ceyms Devid Vensin Azərbaycana səfəri, həmçinin amerikalı iş adamları ilə görüş iki ölkə arasında siyasi münasibətlərin daha da dərinləşməsi ilə yanaşı, iqtisadi əlaqələrin inkişafı baxımından yeni strateji mərhələnin başlanğıcı olaraq dəyərləndirilə bilər: "İstər qarşılıqlı bəyanatlar, istərsə də görüş zamanı səsləndirilən fikirlər rəsmi Bakının ABŞ-ni yalnız investisiya mənbəyi olaraq deyil, eyni zamanda iqtisadi modernləşmə prosesində tərəfdaş olaraq gördüyünü bir daha sübut edir. Mövcud dinamika yeni mərhələdə Azərbaycan-ABŞ iqtisadi əlaqələrinin əsas istiqamətləri kimi investisiyaların şaxələndirilməsi, qeyri-neft sektorunda birgə fəaliyyət və texnologiya əsaslı əməkdaşlığın ön plana çıxacağını göstərir".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Azərbaycanın xarici siyasətinin uğurları



# Sülh, həmrəylik və tolerantlıq

**"Azərbaycanda bütün dinlərin nümayəndələri eyni, bərabər hüquqlara malikdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır, heç bir ayrı-seçkilik yoxdur, olmayıb və ola da bilməz. Bu, bizim böyük sərvətimizdir".**

Prezident İlham Əliyevin "2017 - İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransdakı çıxışında bəyan etdiyi kimi, Cənubi Qafqazın nadir gözəlliyə malik məkanı Azərbaycan tarixən multikultural dəyərlərin, milli və dini dözümlülüyün hökm sürdüyü ölkə kimi tanınıb. Qədim Odlar yurdunda əsrlər boyu formalaşmış tolerant mühit müxtəlif xalqların və dinlərin nümayəndələrinin sülh, qarşılıqlı hörmət və etimad şəraitində birgə yaşamasını təmin edib. Bu mühitdə milli və dini ayrı-seçkiliyə yol verilməməsi Azərbaycanda yaşayan yəhudi icmasının da öz kimliyini, adət-ənənələrini və dini dəyərlərini qoruyub saxlamasına geniş imkan yaradıb.

### Azərbaycan nümunəsi

Prezident İlham Əliyev fevralın 9-da ABŞ-nin Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının sədri Betsi Berns Kornun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Betsi Berns Korn Azərbaycanın strateji əhəmiyyətini, həmçinin ABŞ və İsraillə yaxşı əlaqələrini nəzərə alaraq əməkdaşlığın genişləndirilməsi baxımından məsələlərin müzakirəsi üçün böyük nümayəndə heyəti ilə ölkəmizə səfərə gəlməkdən məmnunluğunu ifadə edib.

Görüşdə Azərbaycanda tarixən tolerant mühitin hökm sürdüyü qeyd edilib, digər xalqların nümayəndələrinə olduğu kimi, yəhudilərə də göstərilən dövlət qayğısına toxunulub.

İsraildən kənarda yəhudilərin ən sıx məskunlaşdığı ərazilərdən biri olan Qubanın Qırmızı qəsəbəsi postsovet məkanında dağ yəhudilərinin yığcam yaşadığı yeganə yaşayış məntəqəsi kimi xüsusi önəm daşıyır. Qırmızı qəsəbədə çayın bir sahilində sinaqoqlar, o biri sahilində məscidlər fəaliyyət göstərir ki, bunun özü dünyada analoqu olmayan nümunədir.

Yəhudi məktəblərinin, mədəniyyət mərkəzlərinin fəaliyyət göstərdiyi ölkəmizdə mövcud olan yeddi sinaqoqdan beşinin Bakıda yerləşməsi Azərbaycanın dini icmalara göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Bu fakt bir daha sübut edir ki, Azərbaycan dövləti digər konfessiyaların nümayəndələrinə olduğu kimi, yəhudi icmasına da dini ayinlərini və milli ənənələrini sərbəst şəkildə yaşatmaq üçün hərtərəfli şərait yaradır.

Əsrlərdir Azərbaycanda sülh və dostluq mühitində yaşayan azərbaycanlılar və yəhudilər bu gün də birgəyaşayışın nadir və dəyərli nümunəsini qoruyub saxlayırlar. Yəhudi icmasının nümayəndələri ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etməklə yanaşı, Vətənimizin ərazi bütövlüyü uğrunda aparılan mübarizədə də fədakarlıq nümayiş etdiriblər. Birinci Qarabağ müharibəsində qəhrəman tankçı Albert Aqarunovun göstərdiyi şücaət Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə yazılıb. Şəhid Milli Qəhrəmanımızın əziz xatirəsinin dövlət səviyyəsində əbədiləşdirilməsi - Bakıda onun adına küçənin verilməsi və möhtəşəm abidənin ucaldılması - Azərbaycan cəmiyyətində multikultural dəyərlərə və vətəndaş həmrəyliyinə verilən yüksək qiymətin parlaq təcəssümüdür.

### Birliyin gücü

İkinci Qarabağ müharibəsi Azərbaycan cəmiyyətində milli birliyin və vətəndaş həmrəyliyinin ən parlaq təzahürlərindən biri oldu. Bu tarixi günlərdə ölkəmizdə yaşayan yəhudi icmasının nümayəndələri də etnik və dini mənsubiyyətindən asılı olmayaraq özlərini bu torpağın ayrılmaz parçası kimi hiss edərək yüksək vətənpərvərlik nümayiş etdirdilər. Onlar Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən "Dəmir yumruq" siyasəti ətrafında sıx birləşərək Azərbaycanın haqq mübarizəsinə açıq və qətiyyətli dəstək verdilər. Müharibə dövründə Azərbaycanın yəhudi icması təkcə ölkə daxilində deyil, beynəlxalq müstəvidə də fəallığı ilə seçildi. Azərbaycan-İsrail münasibətlərinin inkişafında hər zaman mühüm rol oynayan bu icma, eləcə də əsasən azərbaycanəsilli yəhudilərdən ibarət İsraildəki Azərbaycan diasporu ölkəmizin ədalətli mövqeyinin dünyaya çatdırılması istiqamətində ardıcıl fəaliyyət göstərdilər. Müxtəlif ölkə və şəhərlərdə təşkil olunan dəstək aksiyaları, mitinqlər və informasiya təşəbbüsləri Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılmasına mühüm töhfə verdi.

Vətən müharibəsi zamanı nümayiş etdirilən bu birlik və həmrəylik modeli Azərbaycan tolerantlığının real həyatda təcəssümü kimi tarixə düşdü. Bu həmrəylik bir daha sübut etdi ki, Azərbaycanda formalaşmış multikultural dəyərlər, sadəcə, dövlət siyasəti deyil, cəmiyyətin mənəvi həyatının ayrılmaz tərkib hissəsidir. Müxtəlif millətlərin, dinlərin nümayəndələrinin multikulturalizm, tolerantlıq mühitində əsrlərdir harmoniya içərisində yaşadığı Azərbaycan hər zaman sülh tərəfdarı olub. Elə hazırda Cənubi Qafqazda müşahidə olunan de-fakto sülh mühiti də Azərbaycanın bu istiqamətdə yürütdüyü siyasətin nəticəsidir.

Prezident İlham Əliyev ABŞ-nin Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının sədri Betsi Berns Kornun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdiyi zaman da bu məqam xüsusi vurğulandı. Ötən ilin avqustunda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdıran Betsi Berns Korn bu məsələdə Azərbaycan Prezidentinin nümayiş etdirdiyi liderliyi və ABŞ Prezidentinin göstərdiyi səyləri xüsusi vurğuladı.

Dövlətimizin başçısı nailiyyətlərin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın roluna toxundu. Azərbaycan və Ermənistan tərəfinin artıq sülh şəraitində yaşamağa öyrəşdiklərini dedi.

Bəli, Azərbaycan dünyada birgəyaşayışın unikal ünvanı olaraq atdığı sülhpərvər addımları ilə regiona, burada yaşayan bütün xalqlara barış və firavanlıq vəd edir.

Bütün bu faktlar həm də bir daha göstərir ki, Azərbaycan təkcə coğrafi məkan deyil, fərqli xalqların və inancların vahid amal ətrafında birləşdiyi ümumi vətəndir. Burada tolerantlıq, həmrəylik və vətəndaş məsuliyyəti real həyatda yaşadılan dəyərlərdir. Bu birlik və qarşılıqlı etimad üzərində qurulan Azərbaycan modeli bu gün də regionda sülhün, sabitliyin və birgəyaşayışın etibarlı təminatı kimi çıxış edir.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Qarşılıqlı etimad, dərinləşən əməkdaşlıq

## Qərbin nəhəng şirkətləri Azərbaycanla iqtisadi əlaqələri genişləndirməyə maraq göstərirlər



Prezident İlham Əliyevin fevralın 9-da qəbul etdiyi ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətinin tərkibində ölkəmizlə sıx əməkdaşlıq qurmuş dünyaşöhrətli şirkətlərin rəhbər şəxsləri də vardı. Onlar enerji, texnologiya, qida məhsulları, nəqliyyat və digər sahələri təmsil edirdilər. Söhbət zamanı bildirildi ki, ümumilikdə Azərbaycana səfərə 31 şirkətdən 60 nəfər nümayəndə gəlib.

Azərbaycan-ABŞ iqtisadi əlaqələrində enerji əməkdaşlığının tarixi digər sahələrdə olduğundan xeyli əvvəl başlandığı üçün öncə elə bundan bəhs edək. Məsələn, "ExxonMobil" şirkəti ilə tərəfdaşlığımızdan.

Sözügedən görüş zamanı Prezident İlham Əliyev bu məsələyə də diqqət çəkdi: "Mən "Exxon"un nümayəndələrini görürəm. O da Azərbaycanda investisiya layihələrinə qoşulan ilk şirkətlərdən biridir, hazırda yeni layihələr üzərində işləyir. Ümidvaram ki, yaxşı nəticələr əldə olunacaq. Ötən ilin avqustunda Vaşinqtona səfərim zamanı çox ümidverici və çox cəlbedici layihə ilə bağlı Anlaşma Memorandumunu imzaladıq. Əgər uğurlu olarsa, ümidvarıq ki, bu, bizə neft sənayemizi inkişaf etdirmək üçün əlavə imkanlar yaradacaq, eyni zamanda həmişə olduğu kimi, neft satışından əldə etdiyimiz vəsaiti qeyri-neft iqtisadiyyatına investisiya yatırmaq üçün bizə əlavə imkan verəcək".

Xatırladaq ki, keçən il avqustun 7-də Prezident İlham Əliyevin və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə SOCAR-la (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) "ExxonMobil" arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Bu, iki ölkə arasında enerji əməkdaşlığının inkişaf perspektivlərindən xəbər verir.

Onu da qeyd edək ki, ABŞ-nin "ExxonMobil" şirkəti ölkəmizdə xeyli vaxtdır yaxşı tanınır. Bu şirkət Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının işlənməsi layihəsinin iştirakçısıdır. Başqa sözlə, o, "Əsrin müqaviləsi"nin irəliyə doğru addımladığı, nailiyyətlər əldə etdiyi illərdə Azərbaycanda olub.

"ExxonMobil" bu gün də AÇG-nin səkkiz iştirakçısından biridir və layihədə sanballı, yəni 6,79 faizlik paya malikdir. Bu şirkət eləcə də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin səhmdarlarından biridir və burada 2,5 faizlik payla iştirak edir. Əslində, bunlar şərhə ehtiyacı olmayan faktlardır. Çünki istər AÇG, istərsə də BTC ölkəmizin yaratdığı etibarlı əməkdaşlıq və tərəfdaşlıq sayəsində gerçəkləşdirilən önəmli layihələrdir.

Bir qədər də "ExxonMobil"in özü haqqında: o, təkcə ABŞ-nin deyil, dünyanın ən böyük neft şirkətlərindən biri sayılır. Şirkətin baş ofisi Texas ştatının Dallas şəhərinin ətrafında olan İrvinqdə yerləşir. Əsas neft ehtiyatları Asiya və ABŞ-də, təbii qaz ehtiyatları isə ABŞ, Avstraliya, Asiya və Avropada yerləşir. Hazırkı şirkət 1999-cu ildə ABŞ-nin ən böyük neft şirkətləri "Exxon" və "Mobil"in birləşməsi nəticəsində yaranıb.

Prezident İlham Əliyev digər layihələrdən də bəhs etdi. Çətin dövrdə və mürəkkəb coğrafi şəraitdə çəkilən neft və qaz boru kəmərləri, dəmir yolları, elektrik kabel xətləri kimi mövcud kommunikasiya infrastrukturu barədə məlumat verdi. Belə ki, Azərbaycan yerləşdiyi daha geniş regionda hər hansı növ enerji mənbələrinin idxalından asılılığı olmayan yeganə ölkədir. Biz özümüzü neft, qaz, neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi ilə təmin edirik və onları ixraca da yönəldirik. Bu gün 16 ölkəyə təbii qaz ixrac edirik və qazın boru kəməri ilə təchizatı nöqteyi-nəzərindən dünyada birinci yerdəyik.

Ən önəmli məsələlərdən biri də hələ ki, istifadə, istehlak və ixrac etmədiyimiz çoxlu elektrik enerjisidir. Prezidentimiz bu barədə belə dedi: "İki giqavat enerji artıq mövcuddur və imzalanmış müqavilələrə əsasən - anlaşma memorandumlarına deyil, müqavilələrə əsasən, 2032-ci ilə qədər biz əlavə 7-8 giqavat Günəş və külək enerjisinə sahib olacağıq. Qeyd etdiyim kimi, bütün bunlar artan iqtisadiyyat, inkişaf edən sənaye, xüsusilə bizim qlobal süni intellekt qovşaqlarından və məlumat mərkəzlərindən biri olmaq hədəfimiz şəraitində daxili istehlak üçün əlçatan olacaq. Üstəlik, bu, etibarlı elektrik və qaz təchizatı mənbələri çatışmazlığından və ya olmamasından əziyyət çəkən daha çox ölkələrə kömək edəcək. Üzərində işlədiyimiz layihələrdən biri də Azərbaycandan Avropaya Qara dəniz vasitəsilə kabel xəttinin, həmçinin Prezident Trampın irəli sürdüyü və onun adını daşıyan, Azərbaycanla Ermənistan arasında sülhə nail olunduqdan sonra reallaşması mümkün olan TRIPP layihəsi - Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu vasitəsilə ötürücü xətlərin, mövcud olanlardan əlavə yeni ötürücü xətlərin çəkilməsidir".

Bərpaolunun enerji istiqamətində görülən işlər sırasında BP şirkətinin işğaldan azad edilmiş Cəbrayıl rayonunda tikməkdə olduğu "Şəfəq" Günəş-Elektrik Stansiyasının adı çəkildi. Və BP Böyük Britaniya şirkəti olsa belə burada ondan da bəhs edilməsi təsadüfi deyildi. Çünki görüşdə BP şirkətinin Amerika üzrə kommunikasiya və xarici əlaqələr üzrə baş vitse-prezidenti Meri Strit də iştirak edirdi. O, ölkəmizlə şirkət arasında uzun illərdir davam edən uğurlu tərəfdaşlığı qeyd etdi, Azərbaycandakı müsbət investisiya mühitinə toxundu, yerli kadrların hazırlanması məsələsini diqqətə çatdırdı.

Prezident İlham Əliyev də öz növbəsində Azərbaycan-BP əməkdaşlığını vurğulayaraq dedi: "Biz də 30 ildən artıq davam edən tərəfdaşlığı yüksək qiymətləndiririk. Bu, ölkənin transformasiyasında mühüm rol oynadı. Çünki BP və Azərbaycan 1994-cü ildə birgə fəaliyyətə başlayanda Azərbaycan ciddi problemləri olan ölkə idi. Həmin dövrdə bizim Ermənistanın təcavüzü nəticəsində etnik təmizləməyə məruz qalaraq didərgin salınmış bir milyon evsiz insanımız var idi. Büdcəmizdə vəsait sıfır idi. Elektrik enerjisi kəsintilərimiz var idi, elektrik enerjisi çatışmırdı, hətta neft hasilatı sürətlə azalırdı və uğur qazanmaq perspektivi çox aşağı idi. Beynəlxalq neft şirkətlərindən, əsasən BP və başqalarından investisiyalar cəlb olunması bizim həyatda qalmağımız və dövlət qurmağımız üçün yeganə yol idi. Beləliklə, BP və digər şirkətlərin bizə etimadı mühüm rol oynadı, biz bunu heç vaxt unutmayacağıq. Həmin vaxtdan bəri 30 ildən çox müddətdə heç bir narazılıq və ya heç bir hüquqi məsələ olmayıb. Beləliklə, bu, ev sahibi ölkə ilə aparıcı enerji şirkəti arasında əməkdaşlığın yaxşı nümunəsidir".

Qeyd edildiyi kimi, indi bu əməkdaşlıq bərpaolunan enerjiyə transformasiya olunur. Eyni zamanda bu il "Azəri-Çıraq-Günəşli"nin dərin qatlarından "sərbəst qaz" adlanan yanacağın alınmasını gözləyirik. Həmçinin neft hasilatının sabitləşdirilməsi qarşıda əhəmiyyətli vəzifə kimi dayanır. "Biz çox səmərəli şəkildə işlədiyimiz və işləməyə davam etdiyimiz bütün enerji şirkətləri ilə yaxşı əlaqələr qurmuşuq", - deyə dövlətimizin başçısı bildirmişdir.

Bu sözləri digər sahələri təmsil edən şirkətlər barədə də demək olar. Sözügedən görüşdə iştirak edən şirkətlərdən yalnız bir neçəsinin, məsələn, "Apple", "Ericsson AB", "Herbalife", "Illumina", "Meta", "Visa", "Wabtec", "Baker Hughes"in adını çəkmək kifayətdir ki, Azərbaycan-ABŞ iqtisadi əməkdaşlığının necə şaxələndiyi haqqında aydın təsəvvür yaransın.

*Flora SADIQLI, "Azərbaycan"*

# ABŞ şirkətləri ilə Zəngəzur dəhlizi üzərindən elektrik enerjisinin nəqli perspektivləri dəyərləndirilib

**ABŞ Ticarət Palatasının Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi biznes missiyası çərçivəsində energetika naziri Pərviz Şahbazovun rəhbərliyi və SOCAR, "Azərenerji" ASC, "Azərişıq" ASC, "Azəristiliktəchizat" ASC, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, Enerji Məsələlərini Tənzimləmə Agentliyinin iştirakı ilə "dəyirmi masa" keçirilib.**

Energetika Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, "dəyirmi masa"da Azərbaycan-ABŞ enerji tərəfdaşlığından məmnunluq ifadə edilib.

Bildirilib ki, bu tərəfdaşlıq təkcə milli layihələrin deyil, eyni zamanda regional və beynəlxalq enerji təhlükəsizliyi layihələrinin uğurla reallaşdırılmasına mühüm töhfə verib. ABŞ şirkətlərinin texnologiyaları, təcrübəsi və investisiyaları iri transmilli enerji layihələrinin formalaşmasında həlledici rol oynayıb.

Dövlət başçılarının regionda sülhü təmin edən və Azərbaycan-ABŞ münasibətlərini strateji tərəfdaşlıq əsasında möhkəmləndirən siyasətinin enerji əməkdaşlığının inkişafına da təkan verdiyi vurğulanıb. Azərbaycanın bütün enerji növlərini bərabərhüquqlu əsasda inkişaf etdirməsi, regional enerji bağlantılarını şaxələndirməsi, enerji təchizatçısı rolunu elektrik enerjisi ilə genişləndirməsi və enerjinin mühüm bir hissəsinin məlumat mərkəzlərinin tələbatına yönəldilməsi ilə bağlı kursu diqqətə çatdırılıb. Neft, qaz, bərpaolunan enerji, elektrik enerjisi, hidrogen və enerji səmərəliliyi sahələrində əməkdaşlıq imkanları müzakirə edilib. SOCAR və "ExxonMobil" arasında əməkdaşlığın cari vəziyyəti nəzərdən keçirilib. Həmçinin Azərbaycan, Türkiyə, Mərkəzi Asiya və Avropa arasında elektrik enerjisi dəhlizlərinin icrası, "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" üzərindən elektrik enerjisinin nəqli və bu layihələr çərçivəsində ABŞ şirkətləri ilə əməkdaşlıq perspektivləri dəyərləndirilib. Azərbaycan və ABŞ arasında enerji sahəsində texnologiya, bilik, təcrübə və investisiya istiqamətlərində əməkdaşlığa qarşılıqlı maraq nümayiş etdirilib.



Qeyd edək ki, nümayəndə heyətinə "Apple", "Ardea Energy Technologies Inc.", "Ericsson AB", "ExxonMobil", "Herbalife", "Illumina", "Meta", "Visa", "Wabtec", "Baker Hughes", bp, "Boeing Global", "Honeywell", "J.P. Morgan", "Lummus Technology", "Marriott", "Mastercard", "Shell International", "Motorola Solutions", "Fuji Engineering", "Global Data Risk", "Hill International", "Lummus Technology", "Straife" və digər şirkətlərin rəhbər şəxsləri daxildir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

# 1,1 milyon təqaüdçünün pensiyası artırıldı

## Bunun üçün dövlət büdcəsindən 640 milyon manat ayrılıb

**Azərbaycanda əhalinin sosial rifahının gücləndirilməsi dövlət siyasətinin əsas prioritetlərindən biri kimi ardıcıl davam edir. Xüsusilə sosial müdafiə sisteminin möhkəmləndirilməsi, həssas əhali qruplarının gəlirlərinin qorunması və sosial ədalətin təmin olunması istiqamətində mühüm qərarlar qəbul olunur.**




Bu baxımdan Prezident İlham Əliyevin imzaladığı "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" sərəncam pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsinə, onların maddi rifahının yüksəldilməsinə yönəlmiş növbəti mühüm addımdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin açıqlamasına əsasən, 2026-cı il yanvarın 1-dək təyin edilmiş bütün əmək pensiyaları Dövlət Statistika Komitəsinin təqdim etdiyi rəsmi məlumatlara uyğun olaraq, 2025-ci il üzrə orta aylıq əməkhaqqının illik artım tempinə əsasən bu il yanvarın 1-dən etibarən 9,3 faiz indeksləşdirilərək artırılıb. Sərəncam pensiyaların real dəyərini qorumaq, inflyasiyadan geri qalmasının qarşısını almaq və pensiyaçıların həyat səviyyəsini orta əməkhaqqı artımı ilə uyğunlaşdırmaq məqsədi daşıyır.

Dövlət başçısının imzaladığı sənəd sosial islahatların sistemli xarakter daşıdığını və dövlətin sosial öhdəliklərinə sadiqliyini bir daha nümayiş etdirir. Sayca 5-ci paket çərçivəsində həyata keçirilən bu tədbirlər bütövlükdə ölkədə sosial təminat mexanizmlərinin təkmilləşdirilməsinə, sosial müdafiənin əhatə dairəsinin genişlənməsinə və vətəndaşların həyat səviyyəsinin yüksəldilməsinə yönəlib.

Nazirlik onu da bildirir ki, yanvar ayı üzrə pensiyalara edilən artımlar fevral ayının pensiyası ilə birlikdə ödəniləcək. İndeksləşdirmə bütün pensiyaçıları, o cümlədən hərbi qulluqçuları, hüquq-mühafizə orqanlarının əməkdaşlarını və digər kateqoriyaları əhatə edir. Ümumilikdə artım 1,1 milyon pensiyaçıya şamil olunur və bunun üçün dövlət büdcəsindən illik əlavə 640 milyon manat vəsait ayrılıb. Üstəlik, sığorta olunanların fərdi hesablarında 2026-cı il yanvarın 1-dək toplanmış pensiya kapitalları da ötən il üzrə istehlak qiymətləri indeksinə uyğun olaraq 5,6 faiz artırılıb. Bu artım sosial sığorta sistemində iştirak edən şəxslərin gələcək pensiya təminatının dövlət tərəfindən də dəstəkləndiyinin göstəricisidir.




Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev fevralın 10-da jurnalistlər üçün keçirilən brifinqdə bildirib ki, pensiya kapitallarının artırılması da e-sistem üzərindən avtomatik həyata keçirilir: "Pensiya kapitallarının hər il indeksləşdirilərək artırılması əmək müqaviləsi ilə çalışaraq sosial sığorta sistemində fəal iştirak edənlər üçün bir stimuldur. Onlar fərdi hesablarındakı pensiya kapitalının təkcə hər ay sosial sığorta ayırmaları ilə deyil, eyni zamanda dövlət tərəfindən də hər ilin əvvəlində indeksləşdirilərək artırıldığının şahidi olurlar. Qeyri-formal məşğulluq sahəsində işləyən vətəndaşlar da öz əmək fəaliyyətlərini rəsmiləşdirsinlər və pensiya kapitallarına malik olsunlar ki, hər il dövlət tərəfindən həmin pensiya kapitallarının indeksləşdirilərək artırılması imkanından faydalansınlar və gələcəkdə pensiya təminatı hüququna sahib olsunlar".

Elə buradaca qeyd edək ki, yalnız cari ilin indeksləşməsini deyil, əvvəlki illərdə olan ümumi artımı da nəzərə aldıqda pensiya məbləğlərində əhəmiyyətli artım müşahidə olunur. Rəşad Mustafayev bunu belə şərh edib: "Bu il üçün indeksləşmə faizini nəzərə almasaq, son 5 ildə pensiya məbləğlərində təxminən 70 faiz artım gerçəkləşdirilib. Cari il üzrə indeksləşmə faizi nəzərə alınmaqla artım 85 faiz təşkil edir". Nazir müavininin sözlərinə görə, 2018-2025-ci illərdə orta aylıq pensiya 208 manatdan 543 manata, yaşa görə orta aylıq pensiya 234 manatdan 578 manata çatıb: "Yeni artımla orta aylıq pensiya və yaşa görə orta aylıq pensiya müvafiq olaraq 593 manata və 632 manata çatır. Bu da 2018-ci ilə nisbətən orta aylıq pensiyada 2,8 dəfə, yaşa görə orta aylıq pensiyada 2,7 dəfə artıma nail olunması deməkdir".




İndeksləşdirmə yaşa, əlilliyə və ailə başçısını itirməyə görə təyin olunan bütün növ əmək pensiyalarını əhatə edir. Bu yanaşma qulluq stajına görə əlavə pensiya alanları da əhatə edir. Yəni hərbi qulluqçular, hüquq-mühafizə orqanlarının əməkdaşları və dövlət qulluqçuları da artımdan yararlanacaq. Ölkədə qiymət artımlarının müşahidə olunduğu bir şəraitdə pensiyaların artırılması pensiyaçıların alıcılıq qabiliyyətinin qorunmasına, onların sosial rifahının dəstəklənməsinə xidmət edir. Həyata keçirilən bu tədbirlər bir tərəfdən mövcud pensiyaçıların sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət edirsə, digər tərəfdən gələcək nəsillər üçün daha etibarlı və şəffaf pensiya təminatının formalaşdırılmasına imkan yaradır.




Əslində, sosial islahatların əsası 8 il əvvəl - 2018-ci ildə İlham Əliyevin yenidən prezident seçilməsindən sonra başladı. Andiçmə mərasimində cənab Prezidentin dediyi "hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar" sözləri ötən 8 ildə sosial islahatlarla bağlı verdiyi qanun və sərəncamların ana xəttini təşkil etməklə yanaşı, həm də gələcək proqramların, layihələrin anonsu idi. Hər il əməkhaqlarında və sosial təminatın növləri üzrə ödənişlərdə artımlar müşahidə olunur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, 2018-2025-ci illərdə minimum pensiya məbləği 3 dəfəyədək artırılaraq 110 manatdan 320 manata çatdırılıb. Pensiyalarda artım dinamikası pensiyaların maliyyələşdirilməsi üzrə ayrılan vəsaitin də ildən-ilə artması ilə nəticələnir. Bu vəsait 2018-ci ilə nisbətən 2,3 dəfə artaraq 2026-cı il üçün 7 milyard 993 milyon manata çatıb.




Bütün bunlar onu göstərir ki, Azərbaycanda sosial siyasət formal xarakter daşımır, real ehtiyaclara əsaslanan və insan amilini mərkəzə qoyan dövlət idarəçiliyi modeli tətbiq olunur. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, aztəminatlı təbəqələrin rifahının qorunması və sosial ədalətin təmin edilməsi ölkənin uzunmüddətli inkişaf strategiyasının ayrılmaz tərkib hissəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl sosial islahatlar və sosial paketlər vətəndaş-dövlət münasibətlərində etimadın möhkəmlənməsinə, cəmiyyətdə sosial sabitliyin qorunmasına xidmət edir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Sosial-iqtisadi inkişafın monitorinqinin nəticələri açıqlanıb

## Qeyri-neft-qaz sektorunda ÜDM istehsalı 2,7 faiz, ölkənin strateji valyuta ehtiyatı 14,2 milyard dollar artıb

**Dünya iqtisadiyyatında geriləmə davam edir. Bəzi ölkələrdə yüksək artım qeydə alınsa da, ümumilikdə qlobal iqtisadiyyatda mənfi tendensiyalardan qurtulmaq olmur. Bu, təchizat zəncirində, ticarətdə, investisiya qoyuluşunda özünü daha qabarıq büruzə verir.**

Baş verən proseslər nəticəsində dövlətlər gəlirləri daraldığı üçün büdcələrindən sosial sahələrə ayırdıqları vəsaitin həcmini azaltmağa məcbur olurlar. Əksər ölkələr qlobal səviyyədə baş verən münaqişələr və hərbi təhdidlər üzündən silahlanmaya daha çox vəsait xərcləyirlər.

Azərbaycan da dünyada baş verən prosesləri diqqətlə izləyir, ölkənin sosial-iqtisadi imkanlarını qorumaq üçün zəruri addımlar atır, müxtəlif strategiya və dövlət proqramları hazırlayıb icra edir. Belə sənədlərdən biri də "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası"dır. Strategiyanın hədəfi dayanıqlı artan iqtisadiyyat üzrə nəzərdə tutulan məqsədlərin icrasına monitorinq və qiymətləndirməni həyata keçirməkdir. Strategiyaya əsasən, sənədin icrasına nəzarət İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə (İİTKM) həvalə olunub.

Dövlətin sosial-iqtisadi sahədə müəyyən etdiyi strategiyanın monitorinqinin keçirilməsi üçün müxtəlif işçi qrupları yaradılıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiya"sına uyğun olaraq, 2025-ci ildə görülən işlərin icrasının monitorinqinin nəticələri müxtəlif dövlət qurumları ilə geniş müzakirə edib. Bir daha xatırladaq ki, sənədin 4-cü bəndinə əsasən, ölkədə davamlı iqtisadi artımın təmin edilməsi, institusional islahatların dərinləşdirilməsi və inklüziv inkişafın gücləndirilməsi baxımından icra edilən tədbirlərin monitorinqi Nazirlər Kabinetinin sifarişi ilə həyata keçirilir.

Bəri başdan qeyd edək ki, müasir dünyada baş verən siyasi və iqtisadi proseslərin düzgün dəyərləndirilməsi çox vacib məsələdir. Çünki qlobal iqtisadiyyatda baş verən proseslər düzgün qiymətləndirilmədən qəbul edilən qərarlar yanlış nəticələr doğura bilər. O səbəbdən hazırda dünya düzənində baş verən hər bir tendensiyaya elmi yanaşma lazımdır. Bu məqsədlə İİTKM icraçı qurum qismində müəyyən edilmiş 60-a yaxın dövlət orqanı ilə sıx və sistemli koordinasiya və kommunikasiyanı təmin edir.




Mərkəzin icraçı direktoru, iqtisad elmləri doktoru, professor Vüsal Qasımlı deyir ki, 2025-ci ilin yekunlarına əsasən, Azərbaycanda iqtisadiyyatın dayanıqlı inkişaf meyilləri qorunub saxlanılıb, ümumi daxili məhsul istehsalı 1,4 faiz artıb, qeyri-neft-qaz sektorunda artım dinamikası 2,7 faiz təşkil edib. Həmin dövrdə ölkənin strateji valyuta ehtiyatları 14,2 milyard dollar artaraq 85,2 milyard dollara yüksəlib ki, bu da 2025-ci il üzrə gözlənilən ÜDM həcmini üstələyir. Hazırda strateji valyuta ehtiyatlarının xarici dövlət borcundan təxminən 18 dəfəyə qədər artması ölkənin maliyyə dayanıqlığının möhkəmləndiyini göstərir. Ötən il Azərbaycan mənşəli qeyri-neft məhsullarının ixracının dəyəri 3,6 milyard dollardan çox olub. 2022-ci ildən bu yana olan inkişaf dinamikası göstərir ki, qeyri-neft məhsulları ixracının dəyəri 14 milyard dollara yaxın həcmdə reallaşıb ki, bu artım da iqtisadiyyatın diversifikasiyası istiqamətində mühüm nəticənin əldə edilməsi deməkdir. Bununla yanaşı, 2022-ci ildən bəri qeyri-neft sektoruna 6 milyard dollardan çox birbaşa xarici investisiya cəlb olunub. Bu isə ölkədə olan münbit investisiya mühiti və həmin sektora yabançı sərmayədarların maraq göstərməsinin nəticəsidir.

V.Qasımlının sözlərinə görə, illik inflasiya səviyyəsinin 4±2 diapazonunda, habelə məcmu dövlət borcunun ÜDM-ə nisbəti və icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft-qaz ÜDM-nə nisbəti ilə bağlı müəyyən edilmiş makro-fiskal çərçivədə saxlanılması strategiyanın icrası dövründə təmin edilən müsbət haldır.

Vüsal Qasımlı bildirir ki, son illər əmək bazarında rəqabətqabiliyyətli kadr potensialının formalaşdırılması istiqamətində də mühüm addımlar atılıb: "Həmin sahədə peşə və kvalifikasiya standartlarının yaradılması bu prosesin əsas dayaqlarından biridir. Hazırda "Peşə və Kvalifikasiya Standartlarının Reyestri"ndə 1600-dən çox standart mövcuddur ki, bu da əmək bazarında təklif və tələbin daha effektiv uyğunlaşdırılmasına imkan verir".

Ölkəmizdə yüksək texnologiyalardan istifadəyə xüsusi diqqət verilir. Azərbaycan rəqəmsal transformasiya sahəsində regionda öncül mövqeyini möhkəmləndirmək üçün mühüm addımlar atır. Yüksək və orta-yüksək texnoloji sənayenin əlavə dəyərinin ümumi əlavə dəyərdə xüsusi çəkisi 13 faizə çatıb və cari ildə 15 faizə nail olunması əsas hədəf kimi müəyyən edilib. Strategiyaya istinadən dövlət başçısının sərəncamları ilə təsdiq olunmuş Süni İntellekt Strategiyası, Rəqəmsal İnkişaf Konsepsiyası və Rəqəmsal İqtisadiyyatın İnkişafına dair Strategiyanın qəbul edilməsi Azərbaycanın texnoloji inkişafında yeni mərhələnin başlanmasına geniş imkan yaradacaq.

V.Qasımlının sözlərinə görə, təhsil, elm, səhiyyə və rəqəmsal transformasiya sahələrində həyata keçirilən ardıcıl uğurlu islahatlar müasir bilik və bacarıqlara malik, sağlam və rəqabətqabiliyyətli nəsil formalaşdırmağa şərait yaradacaq: "Statistikaya əsasən, 2025-2026-cı tədris ilində 225 mindən çox uşaq məktəbəhazırlığa cəlb edilib, 80-dən artıq məktəb isə əsaslı şəkildə yenilənib. Müasir dövrün tələbinə uyğun kadrlar hazırlamaq üçün peşə təhsilində baza və tədrisdə modern yanaşmalar tətbiq olunur, Bakı və Lənkəran Peşə Təhsil mərkəzlərində yenidənqurma işləri başa çatıb, adambaşı maliyyələşmə modeli çərçivəsində minlərlə gənc əmək bazarına uyğun ixtisaslar üzrə təhsil alır".

İİTKM-in icraçı direktoru vurğulayır ki, ekoloji tarazlığın qorunması, bərpaolunan enerji mənbələrinin payının artırılması və təmiz istehsal texnologiyalarının tətbiqi istiqamətində də ötən icra dövründə mühüm addımlar atılıb: "Görülən işlərin keyfiyyətli olması üçün hidrometeoroloji müşahidələrin gücləndirilməsi məqsədilə ölkədə hava və su resurslarının monitorinqini daha operativ və dəqiq aparmağa imkan verən onlarca avtomat meteoroloji, hidroloji və radar sistemi ölkəyə gətirilərək quraşdırılıb. Aqrar sektorda yüksək məhsuldarlığa nail olmaq üçün süni intellektə əsaslanan idarəetmə sistemləri və ekoloji təmiz istehsal texnologiyaları artıq bir çox təsərrüfatda sınaqdan keçirilir".

Enerji sektorunda görülən işlərdən söz açan mərkəz rəhbəri deyib ki, bu sahə üzrə qəbul edilən "Elektroenergetika haqqında" və "Qaz təchizatı haqqında" qanunlar sözügedən sektorda müasir tənzimləyici çərçivənin formalaşmasına mühüm töhfə verib. Azərbaycanın enerji xəritəsində əlamətdar hadisələrdən biri "Masdar" şirkəti tərəfindən inşa edilən 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyasıdır. Bununla yanaşı, "8 Noyabr" Elektrik Stansiyasının istismara verilməsi də ölkənin enerji təhlükəsizliyini gücləndirib. Son illər həyata keçirilən tədbirlər nəticəsində bərpaolunan enerji mənbələrinin payının 17,3 faizdən 20,8 faizə yüksəlməsi Azərbaycanın "yaşıl enerji" strategiyasına sadiqliyinin göstəricisidir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Azərbaycan tarixində bərpaolunan enerji mənbələri üzrə ilk beynəlxalq karbon kreditləri əldə edilib

**"SOCAR Trading" və "Azərenerji" ASC-nin əməkdaşlığı çərçivəsində Laçın rayonunda yerləşən "Mirik" və "Qaraqışlaq" kiçik su-elektrik stansiyalarını əhatə edən "Hidro-3" layihəsi beynəlxalq karbon bazarına uğurla daxil olub.**

SOCAR-dan bildirilib ki, bu, Azərbaycanın enerji sektorunda tarixi əhəmiyyətə malik yeni bir nailiyyətdir. Layihə 28 may 2025-ci il tarixdə dünyanın aparıcı karbon sertifikatlaşdırma qurumlarından biri olan "Gold Standard" tərəfindən qeydiyyata alınıb, 28 yanvar 2026-cı il tarixdə "Hidro-3" layihəsi üzrə karbon kreditləri rəsmi şəkildə təqdim edilib. Bu, Azərbaycan tarixində bərpaolunan enerji mənbələri üzrə əldə edilmiş ilk beynəlxalq karbon kreditləridir.

Karbon kreditləri 2024-cü ilin aprel ayından 2025-ci ilin avqust ayınadək olan dövrü əhatə edir və ümumi həcmi 10 745 karbon vahidi təşkil edir. Bu göstərici layihənin istixana qazı emissiyalarının azaldılmasına real və ölçülə bilən töhfə verdiyini təsdiqləyir.

Bu nailiyyət Azərbaycanın "yaşıl enerji" strategiyasının uğurla icra olunduğunu və Qarabağ bölgəsinin bərpaolunan enerji potensialının beynəlxalq səviyyədə tanındığını bir daha nümayiş etdirir.

# Dünya birjalarında neft ucuzlaşıb

## *Azərbaycan nefti isə bahalaşıb*

**AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,1 dollar azalaraq 68,94 dollar olub.**

Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,13 dollar ucuzlaşaraq 64,23 dollar təşkil edib.



"Azeri Light" markalı neftin bir barelinin qiyməti isə 0,51 dollar və ya 0,72 faiz artaraq 71,21 dollar olub.

Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

# REGİONLAR

# Dirçələn torpaq, güclənən iqtisadiyyat

## İnvestorların Ağdam Sənaye Parkına maraqları artır




**Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın böyük iqtisadi potensiala malik əraziləridir. Uzun illər işğal altında qalan bu bölgə hazırda bərpa, yenidənqurma mərhələsindədir və sənayenin inkişafı əsas prioritetlərdən biridir.**

Sirr deyil ki, region zəngin təbii ehtiyatlara malikdir. Xüsusilə dağ-mədən sənayesi, tikinti materialları, enerji istehsalı və kənd təsərrüfatı məhsullarının emalı üçün geniş imkanlar mövcuddur. Kəlbəcər və Laçın rayonlarındakı qızıl, civə və digər faydalı qazıntılar sənayenin inkişafı üçün çox böyük bazadır. Mərmər, əhəngdaşı, perlit və gil yataqları da tikinti sənayesinin inkişafı üçün əlverişli şərait yaradır. Zəngin su ehtiyatları hidroenergetika sahəsinin inkişafına imkan verir, dağ çayları üzərində su-elektrik stansiyalarının qurulması enerji təminatını gücləndirir. Onu da qeyd edək ki, əlverişli iqlim və torpaq kənd təsərrüfatı məhsullarının emalına əsaslanan sahələrin - qida, konserv və yüngül sənayenin inkişafında mühüm rol oynayır. Bu amillər bölgənin iqtisadi potensialını artıraraq sənayenin davamlı tərəqqisi üçün möhkəm zəmin formalaşdırır.

Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji zonası"nın yaradılması da sənaye baxımından böyük əhəmiyyət daşıyır. Günəş, külək və su-elektrik stansiyalarının qurulması enerji sənayesinin inkişafına və ekoloji tarazlığın qorunmasına xidmət edir. Bu layihələr, həm də regionun enerji müstəqilliyini artırır, sənaye müəssisələri üçün dayanıqlı enerji mənbəyini təmin edir və yeni texnologiyaların tətbiqinə şərait yaradır. Eyni zamanda "yaşıl enerji" sahəsində yaradılan iş yerləri əhalinin məşğulluğunu artırır və bölgəyə gənc mütəxəssislərin cəlb olunmasına imkan verir. Bu, həm iqtisadi, həm də sosial inkişafı sürətləndirir, insanların həyat səviyyəsinin yüksəlməsinə yol açır.

Qarabağ və Şərqi Zəngəzurda sənaye parklarının, logistika mərkəzlərinin və müasir istehsal müəssisələrinin qurulması regionu investisiya baxımından cəlbedici zonaya çevirir. Nəticədə bölgədə həm yerli, həm də xarici investisiyaların artması gözlənilir ki, bu da iqtisadi sabitliyi və davamlı inkişafı təmin edir. Regionda sənaye parklarının və logistika mərkəzlərinin yaradılması yeni iş yerlərinin açılmasına, əhalinin geri qayıdışına və sosial-iqtisadi inkişafın sürətlənməsinə şərait yaradır. Dövlət tərəfindən həyata keçirilən infrastruktur layihələri sənayenin davamlı inkişafını önə çəkir. Xüsusilə Ağdam Sənaye Parkı bu baxımdan böyük əhəmiyyət kəsb edir. Parkda fəaliyyət göstərən müxtəlif istehsal müəssisələri qida, tikinti materialları, yüngül və emal sənayesini özündə birləşdirir.

Ağdam Sənaye Parkı həmçinin regiona investisiyaların cəlb olunmasına yol açır və yerli sahibkarlığın inkişafını dəstəkləyir. Parkda yaradılan iş yerləri əhalinin bölgəyə qayıdışını sürətləndirir, eləcə də sosial rifahın yüksəlməsinə töhfə verir. Bu layihə Qarabağ və Şərqi Zəngəzurda sənayenin modernləşdirilməsi və iqtisadi dirçəlişin sürətlənməsi baxımından strateji əhəmiyyətə malikdir. Faktlar və statistik göstəricilər də Ağdam Sənaye Parkının nə qədər uğurlu və perspektivli layihə olduğunu açıq şəkildə göstərir. İqtisadi Zonaların İnkişfı Agentliyinin (İZİA) məlumatına görə, parkda 32 biznes subyektinə rezidentlik, əlavə olaraq 5 sahibkara isə qeyri-rezidentlik statusu verilib ki, bu da regiona həm yerli, həm də xarici investisiyaların cəlb olunmasına şərait yaradır. Sahibkarlar tərəfindən sənaye parkında görülmüş işlərə 145,8 milyon manat investisiya yatırılıb və bunun nəticəsi olaraq, indi 1000-ə yaxın daimi iş yeri mövcuddur.

İşə qəbul zamanı xüsusilə Ağdam və ətraf rayonlardan olan əhaliyə üstünlük verilir. Bu da təbii ki, bölgədə sosial-iqtisadi sabitliyin qorunmasına və yerli icmaların dəstəklənməsinə xidmət edir. Hazırda Ağdam Sənaye Parkında 13 müəssisə fəaliyyət göstərir və burada sahibkarlar tərəfindən istehsal edilmiş məhsulların həcmi 1,4 milyard manatdan ibarətdir. Çox yaxşı haldır ki, həmin məhsulların 62,3 milyon manatı xarici bazarlara ixrac olunub.

Beləliklə, Ağdam Sənaye Parkı təkcə sənaye sahəsinin inkişafına deyil, həm də regional iqtisadiyyatın güclənməsinə, işsizliyin azaldılmasına və yerli əhalinin rifahının yüksəlməsinə töhfə verir. Bu uğurlu təcrübə Qarabağ və Şərqi Zəngəzurda sənayenin digər sahələrinə də nümunə ola bilər. Məsələn, 2021-ci ildə yaradılan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı Cəbrayıl rayonunda yerləşir və kənd təsərrüfatı məhsullarının emalı, sənayesi və logistika sahələrini əhatə edəcək şəkildə planlaşdırılıb. Burada işlərin gözlənilən səviyyədə irəliləməsi əsas verir ki, gələcəkdə Zəngilan və Laçın kimi digər rayonlarda da sənaye və kənd təsərrüfatı zonaları yaradılsın.

Şərqi Zəngəzurda yaradılan sənaye və kənd təsərrüfatı istehsal zonaları Ağdam Sənaye Parkının modelindən ilhamlanaraq investisiyaların cəlb edilməsinə və yerli sahibkarlığın inkişafına xidmət edir. Oxşar sənaye parklarının təşkili bölgədə emal sənayesinin genişlənməsinə, logistika imkanlarının artmasına və ixrac potensialının yüksəlməsinə şərait yaradır. Qeyd edək ki, bu təcrübə gənc mütəxəssislərin yetişdirilməsinə və innovativ texnologiyaların tətbiqinə imkan verir. Belə layihələr bölgədə iqtisadi sabitliyi gücləndirir, işgüzar mühiti yaxşılaşdırır və yerli əhalinin həyat səviyyəsinin yüksəlməsinə töhfə verir.

Qarabağ və Şərqi Zəngəzurda sənayenin inkişafı yalnız iqtisadi nəticələr gətirmir, həm də regionun sosial və mədəni dirçəlişinə dəstək olur, insanların öz doğma torpaqlarına geri dönməsinə stimul verir. Nəticə etibarilə Ağdam Sənaye Parkı və ona bənzər layihələr regionun iqtisadi inkişaf strategiyasının mərkəzi elementi olaraq, Azərbaycanın dayanıqlı sənaye potensialının formalaşmasında mühüm rol oynayır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Onlar dövlətin qüruru, dövlət onların dayağıdır

## Göygöldə şəhid ailələrinin və qazilərin heç bir müraciəti diqqətdən kənarda qalmır

**Qarabağ Zəfərindən 5 ildən çox vaxt keçməsinə baxmayaraq, Azərbaycan xalqı həmin günləri bu gün də qürur hissi ilə xatırlayır. Bu, o tarixdir ki, başlanğıcını 27 sentyabrdan götürmüş və 10 noyabrda ordumuzun tam qələbəsi ilə başa çatmışdır. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuz döyüş meydanında tarixi ədaləti bərpa etmişdir.**



İndi xalqımız haqlı olaraq həmin döyüşlərdə əsl vətənpərvərlik nümayiş etdirən qorxmaz, qeyrətli əsgər və zabitləri ilə fəxr edir, onların fədakarlığı qarşısında baş əyir. Bu yolda canlarını qurban verən, ağır döyüşlərdə sağlamlığını itirən igid oğullarımız isə heç vaxt unudulmur, daim yad edilərək gələcək nəsillərə nümunə göstərilir.

Şəhid ailələri, qazilər, eləcə də müharibə iştirakçılarına Göygöl rayonunda da diqqət və qayğı ilə yanaşılır. Onlarla keçirilən görüşlərdə qaldırdıqları məsələlərə biganə yanaşılmır. Qeyd edək ki, rayonda 105 şəhid, 136 müharibə əlili, 1897 nəfər müharibə iştirakçısı var. Rayon icra hakimiyyətində Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsi yarandığı gündən şəhid ailələri, eləcə də müharibə əlilləri və veteranlarının qaldırdıqları problemlər qanunvericilikdə nəzərdə tutulmuş güzəşt və imtiyazlar çərçivəsində həll edilir. Əlillik dərəcəsinin təyin edilməsi, veteran adının və vəsiqənin verilməsi, şəhid adının əbədiləşdirilməsi, ad verilmiş küçələrdə abadlıq və quruculuq işlərinin aparılması, məişət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər görülür. Bundan başqa, rayon rəhbərliyi şəhidlərin ailə üzvləri ilə görüşərək onların arzu və istəklərini dinləyir, qaldırılan məsələlərin həlli istiqamətində tədbirlər görür. Bu görüşlərdə dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qazilərə göstərdikləri xüsusi diqqət və qayğıdan danışılır, qazilərin sosial müdafiəsinin gücləndirilməsi və məşğulluq məsələlərinin həlli istiqamətində mühüm addımlar atıldığı vurğulanır.

Vətən müharibəsi qələbə ilə başa çatdıqdan bu günəcən rayon ərazisində yaşayan şəhid ailələri və qazilərin ev tikintisi, sahibkarlıq fəaliyyəti, eləcə də xatirələrinin anılması məqsədilə bulaq komplekslərinin tikintisinə torpaq sahəsi ayrılması, mənzil və ya avtomobil növbəsinə götürülməsi, iş və ya özünüməşğulluq aktivləri ilə təmin edilməsi, maddi yardım verilməsi, tibbi-müalicə və dərman vasitələrinin alınması üçün etdikləri xahiş və müraciətləri diqqətdən kənarda qalmamışdır. Bundan başqa, təkcə son bir ildə rayon üzrə ümumilikdə 185 nəfər imtiyazlı şəxs mənzil növbəsinə alınmış, 67 nəfər daimi işlə təmin edilmişdir. Hazırda mənzil qeydiyyatında olan 67 nəfərin 33 nəfəri şəhid ailəsi, 32 nəfəri müharibə əlilidir. Keçən ilin dekabr ayınadək isə 29 şəhid ailəsi və 83 nəfər müharibə əlili mənzil və fərdi yaşayış evi ilə təmin olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Lənkəranda və Lerikdə "Heydər Əliyev ideyaları ilə başlayan 30 illik inkişaf yolu" adlı forum keçirilib

**Forum Lənkəran Şəhər İcra Hakimiyyətinin, Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı və Regional Mədəniyyət İdarəsinin tərəfdaşlığı ilə Lənkəranda ilk Gənclər Forumunun keçirilməsinin 30 illiyinə həsr olunub.**

Çıxışlarda bildirilib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasətinin nəticəsində Azərbaycan gəncləri bu gün bütün sahələrdə fəaldırlar. Qeyd olunub ki, gəncliyin yüksək intellektual biliyə, sağlam ruh və bədənə malik olması, mənəvi və milli dəyərlərə sədaqət ruhunda tərbiyə edilməsi hər bir dövlətin milli prioritet istiqamətlərindən sayılır. Azərbaycan gəncliyi tarixin bütün dövrlərində cəmiyyətin həyatında mühüm rol oynayıb, xalqımızın əldə etdiyi uğurlarda öndə olub. Dövlət müstəqilliyinin əldə edilməsində, sovet imperiyasına qarşı azadlıq mübarizəsində, Qarabağın işğaldan azad olunmasında ön sıralarda məhz gənclərimiz gediblər. Vurğulanıb ki, dövlətin göstərdiyi qayğı və diqqətə gənclərimiz nümunəvi fəaliyyətləri, konkret mövqeləri ilə cavab verirlər.

Bu mövzuda forum Lerikdə də keçirilib. Forumda rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov, Milli Məclisin deputatı Vasif Qafarov, YAP Lerik rayon təşkilatının sədri Malik Mirzəyev, 1996-cı ilin fevralında keçirilmiş Azərbaycan Gənclərinin I Forumunun iştirakçıları, şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsinin iştirakçıları, rayon ictimaiyyətinin nümayəndələri və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Əkbər Abbasov gənclərin ölkənin ictimai-siyasi həyatında fəal iştirakının vacibliyini qeyd edərək onların bilik və bacarıqlarının Azərbaycanın davamlı inkişafına töhfə verdiyini bildirib. Digər çıxış edənlər isə Heydər Əliyev ideyalarının ölkənin inkişafı yolunda həlledici rolundan, gənclərin bu ideyalar ətrafında birləşməsinin əhəmiyyətindən bəhs ediblər.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Qarlı hava şəraitində Qusarda sahələrin monitorinqi davam edir

**Qarlı və qeyri-sabit hava şəraitinə baxmayaraq, Qusar Dövlət Aqrar İnkişaf Mərkəzinin müfəttişləri rayon ərazisində payızlıq və çoxillik əkin sahələrinin monitorinqlərini davam etdirirlər.**



Monitorinqlərin məqsədi Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində bəyan edilmiş torpaq sənədlərinin, əkin sahələrinin və əkin növlərinə dair məlumatların düzgünlüyünün yoxlanılması, bu sahədə şəffaflığın təmin edilməsi və nəzarətin gücləndirilməsidir.

Artıq rayonun bir sıra kəndlərində monitorinqlər aparılmış, nəticələrinə uyğun aktlar tərtib edilmişdir. Monitorinqlərin intensiv aparılmasının əsas səbəblərindən biri fermerlərin subsidiyaları vaxtında və problemsiz əldə etmələrinə dəstək olmaqdır. Aşkarlanmış qanun pozuntuları ilə bağlı isə mövcud qanunvericiliyə uyğun tədbirlərin görülməsi nəzərdə tutulur.

Mütəxəssislər bildirirlər ki, qarlı havalar əkinin inkişafında mühüm rol oynayır. Yanvardan bəri yağan qar gələcək məhsuldarlığın qarantıdır.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# Aqrar sığorta mexanizmi vasitəsilə sığortalanan kənd təsərrüfatı heyvanlarının sayı 2 dəfə artıb



**Azərbaycanda dövlət dəstəyi ilə təqdim olunan aqrar sığorta mexanizmindən istifadə genişlənməkdədir.**

Aqrar sığorta mexanizmi vasitəsilə əkin sahələri ilə yanaşı, heyvandarlıq təsərrüfatları - südlük və ətlik mal-qara, həmçinin xırdabuynuzlu heyvanlar da sığortalanır.

2025-ci ilin nəticələrinə əsasən, ölkədə sığortalanan kənd təsərrüfatı heyvanlarının sayı 2 dəfədən çox artıb. Ötən il ölkə üzrə 6935 baş iri və xırdabuynuzlu heyvan sığorta edilib ki, bu da 2024-cü illə müqayisədə 2,1 dəfə çoxdur. Xatırladaq ki, 2024-cü ildə Azərbaycanda aqrar sığorta mexanizmi vasitəsilə 3 276 heyvan sığortalanmışdı.

Dövlət dəstəkli aqrar sığorta mexanizmində sığorta haqqının 50 faizini fermerlərə dəstək məqsədilə dövlət ödəyir. Nəticədə fermerlər cüzi ödəniş etməklə heyvanları sığorta etdirə bilirlər. Mövcud tariflərə əsasən, 1000 manatlıq iribuynuzlu mal-qaranın (inək, camış) sığortalanması fermerə 24-39 manata, 300 manatlıq xırdabuynuzlu heyvanların (qoyun, keçi) sığortalanması isə 7-10 manata başa gəlir.

2025-ci ildə heyvandarlıq sığortası üzrə toplanan sığorta haqları 2,5 dəfə artaraq 4,7 milyon manata yüksəlib. Bunun müqabilində heyvandarlıq təsərrüfatlarına verilən sığorta təminatı 46 milyon manatı keçib. Bu göstərici 2024-cü illə müqayisədə 2,3 dəfə çoxdur. Aqrar Sığorta Fondu heyvanları çoxsaylı risklərdən, o cümlədən yoluxucu xəstəliklərdən, yemdən və otdan zəhərlənmədən, yanğından, ilan və həşərat sancmasından, vəhşi heyvanların hücumundan, təbii fəlakətlərdən, üçüncü şəxslərin hərəkətlərindən və sair hallardan sığorta edir. Bu hadisələr nəticəsində tələf olan heyvanlara görə sığorta ödənişləri həyata keçirilir.

2025-ci ildə müxtəlif hadisələr nəticəsində zərər görmüş fermer və təsərrüfatlara heyvandarlıq sığortası üzrə 394 min manat sığorta ödənişi həyata keçirilib.

Ötən il ən çox sığorta ödənişləri yoluxucu xəstəliklər, yemdən zəhərlənmə və vəhşi heyvanların hücumları üzrə edilib.

Aqrar sığortanın əhatə etdiyi məhsullar, heyvandarlıq sığortasının şərtləri və tarifləri ilə Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsində "Heyvandarlıq məhsulları" bölməsində ətraflı tanış olmaq, sığorta haqqını isə "Heyvandarlıq kalkulyatoru" vasitəsilə hesablamaq mümkündür. Əlavə məlumatları ASF-nin sosial şəbəkə hesablarını izləməklə və 1651 nömrəsi ilə əlaqə saxlamaqla əldə etmək olar.

# Azad edilmiş 4 kənddə su və kanalizasiya sisteminin tikintisinə başlanılır

**Cəbrayıl rayonunun Soltanlı kəndinin su təchizatı və kanalizasiya sisteminin tikintisi işlərinə başlanılır.**



"Trend"in dövlət satınalmalarının vahid internet portalına istinadən məlumatına görə, görləcək işlər Cəbrayıl rayonunun Maşanlı, Soltanlı, Böyük Mərcanlı, Sarıcalı kəndlərinin xarici su təchizatı və kanalizasiya sisteminin tikintisi çərçivəsində aparılacaq. Belə ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) tabeliyindəki Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti artıq bununla bağlı müvafiq işlərə start verib.

Qurum hazırda sözügedən işləri icra edəcək şirkəti müəyyənləşdirməkdədir.

Eyni zamanda görüləcək işlərin 7,305 milyon manata başa gələcəyi proqnozlaşdırılıb.

# Paytaxtın İslam Səfərli küçəsində abadlıq-quruculuq işləri davam etdirilir




Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq, Bakı şəhərində piyada zonalarının yaradılması və geniş abadlıq-quruculuq işləri davam etdirilir.

Bu istiqamətdə icra olunan layihələrdən biri də paytaxt sakinləri və şəhərə gələn qonaqların sıx istifadə etdiyi ərazilərdən sayılan İslam Səfərli küçəsini əhatə edir. Küçənin piyada yönümlü formata keçirilməsi məqsədilə hazırda intensiv işlər aparılır.

Bütün küçə boyu mövcud kommunikasiya xəttləri tam yenilənib. İslam Səfərli küçəsi ərazisində abadlıq-quruculuq işləri davam etdirilir, həmin ərazidə piyada zonası yaradılır, küçənin əksər hissəsində beton örtüyü salınıb, yaşıllıq üçün xüsusi yerlər yaradılıb, işıq dirəklərinin quraşdırılmasına başlanılıb.



Küçənin böyük hissəsində daş döşəmələrin salınması işləri yekunlaşıb. Ayrı-ayrı hissələrdə artıq skamyalar quraşdırılıb, ümumi görünüş mərhələli şəkildə müasir piyada məkanına uyğunlaşdırılır. Bu işlər bir kilometrdan çox ərazini əhatə edir.

Qeyd edək ki, həyata keçirilən bu layihə təkcə şəhər estetikasının yaxşılaşdırılmasına deyil, həm də piyadalar üçün daha rahat, təhlükəsiz və funksional mühitin formalaşdırılmasına yönəlib.

*"Azərbaycan"*

# Ruben Vardanyanın məhkəməsində məhkəmə baxışı başa çatıb, hakimlər müşavirəyə gediblər

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi fevralın 10-da davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Sədrlik edən xatırladıb ki, keçən məhkəmə prosesində dövlət ittihamçıları çıxış ediblər. Z.Ağayev bildirib ki, indi söz zərərçəkmiş tərəfə veriləcək.

Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov çıxış edib. O, ittiham tərəfindən təqdim edilmiş, o cümlədən ittiham aktında qeyd olunmuş bütün faktlarla, dəlillərlə, sübutlarla razı olduğunu söyləyib və bunun nəzərə alınmasını məhkəmədən xahiş edib.

Daha sonra zərərçəkmiş şəxslərin hüquqi varisləri Azad Kərimov, Oqtay Şıxəliyev, Qədim Ağaxanov, Faiq Rüstəmov, Şiraslan Həsənov çıxış edərək təqsirləndirilən şəxsin ən ağır cəzaya - ömürlük həbsə məhkum edilməsini məhkəmədən xahiş ediblər.

Təqsirləndirilən şəxs R.Vardanyan məhkəməyə müraciət edərək müdafiəçisi Emil Babışovla danışmaq istədiyini bildirib. Məhkəmə onun vəsatətini təmin edib. Təqsirləndirilən şəxsin vəkili ilə görüşməsinə görə məhkəmədə fasilə elan olunub.

Fasilədən sonra çıxış üçün söz müdafiə tərəfinə verilib. Söz alan təqsirləndirilən şəxs fasilə zamanı vəkili ilə danışdığını, onun çıxış etməsini istəmədiyini söyləyib.

Söz təqsirləndirilən şəxsin vəkili E.Babışova verilib. Müdafiəçi çıxışında elan olunmuş ittihamla qəti şəkildə razı olmadıqlarını bildirib. O, iş üzrə təqsirləndirilən şəxsin mövqeyini əsas götürərək cinayət işi ilə əlaqədar müdafiə nitqi ilə çıxış etməkdən imtina etdiyini söyləyib.

Ardınca müdafiəçinin çıxışına münasibət bildirmək üçün söz ittiham tərəfinə verilib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev deyib: "Müdafiəçinin təqsirləndirilən şəxsin mövqeyinə uyğun olaraq hər hansı arqumentlərə, sübutlara, faktlara qiymət verməməsini nəzərə almaqla əlavə fikrimiz yoxdur".

Sonra R.Vardanyana söz verilib.

Təqsirləndirilən şəxs son söz çıxışı edib. R.Vardanyan son söz çıxışında konkret məsələlərlə bağlı yox, ümumi sözlərlə danışıb. O, Azərbaycan Respublikası Cinayət Məcəlləsini oxuduğunu söyləyib.

Təqsirləndirilən şəxs çıxışında, həmçinin saxlanıldığı iki ildən artıq müddətdə özü üçün Azərbaycan poeziyasını kəşf etdiyini deyib. R.Vardanyan Azərbaycanın dahi şairləri Məhəmməd Füzulinin şeirini və Hüseyn Cavidin poemasından bir hissəni rus dilində oxuyub. Bundan sonra o, çıxışını yekunlaşdırıb.

Zeynal Ağayev tərəflərə (ittiham və müdafiə tərəfi) müraciət edərək məhkəmə baxışının nəticələri əsasında yekun məhkəmə qərarının layihəsinin variantını təqdim edib-etməyəcəklərini soruşub.

Tərəflər yekun məhkəmə qərarının layihəsini təqdim etməyəcəklərini bildiriblər.

Ardınca sədrlik edən məhkəmə baxışının başa çatdığını elan edib. Məhkəmə heyəti müşavirədən qayıtdıqdan sonra məhkəmə hökmü elan olunacaq.

Xatırladaq ki, ötən məhkəmə iclasında dövlət ittihamını müdafiə edən prokuror çıxış edərək təqsirləndirilən R.Vardanyanın ömürlük azadlıqdan məhrum olunmasını təklif edib.

Qeyd edək ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# Rohinca müsəlmanlarının soyqırımı ilə bağlı BƏM-ə təkzibolunmaz dəlillər təqdim edilib




Beynəlxalq Ədalət Məhkəməsində (BƏM) Myanmaya qarşı soyqırımı işinin mahiyyəti üzrə dinləmənin başa çatmasından sonra Qambiya hüquq qrupunun başçısı vəkil Arslan Süleyman və Fortify Rights insan haqları təşkilatının təsisçisi və icraçı direktoru Metyu Smit "Anadolu" Agentliyinə verdikləri şərhlərdə bu məhkəmə prosesinin təkcə Myanma üçün deyil, həm də soyqırımı iddiaları ilə bağlı sonrakı bütün işlər üçün əhəmiyyətini vurğulayıblar.

Qambiya BƏM-ə Myanma ordusunun rohinca müsəlmanlarını qəsdən təqib etdiyini, bu etnik və dini qrupu məhv etmək məqsədilə soyqırımı törətdiyini göstərən geniş dəlil və ifadələr təqdim edib. Myanma isə bu ittihamları tamamilə rədd edərək iddia edir ki, hərbi əməliyyatlar yalnız terrorizmə qarşı mübarizənin bir hissəsi kimi həyata keçirilib və müəyyən bir etnik azlığı məhv etmək niyyəti güdməyib.

Arslan Süleyman və Metyu Smit Haaqada keçirilən son dinləmələrlə bağlı qiymətləndirmələrini bölüşərək məhkəmə prosesinin gedişi barədə məlumat veriblər və onun digər soyqırımı işlərinə potensial təsirini müzakirə ediblər.

A.Süleyman bildirib ki, Qambiya Beynəlxalq Ədalət Məhkəməsinə ən əhatəli soyqırımı sübutları toplusunu təqdim edib: "Dosyedə BMT-nin Müstəqil İstintaq Mexanizmi, digər qurumlarının müstəqil və etibarlı hesabatları, şahid ifadələri, ekspert rəyləri, peyk görüntüləri, rəqəmsal məhkəmə ekspertizası təhlili və Myanma ordusuna aid edilə bilən sosial media paylaşımları yer alıb".

Bundan əlavə, iş materiallarına Myanma rəsmilərinin ifadələri, müstəqil insan haqları təşkilatlarının hesabatları, jurnalist araşdırmaları materialları və digər sübut mənbələri daxildir. A.Süleyman vurğulayıb ki, bütün bunlar Myanma ordusunun Arakan əyalətində rohinca müsəlmanlarına qarşı soyqırımı aktları törətdiyini inandırıcı şəkildə nümayiş etdirir. Qeyd olunub ki, bir sıra qapalı iclaslarda soyqırımından bəzi sağ çıxanlar hakimlər qarşısında şəxsən ifadə veriblər və bu, hakimlərin əsl mənzərəni anlamaları üçün çox vacib idi. "Dinləmə zamanı soyqırımından sağ çıxanlara söz verilməsi zaldakı hər kəsdə dərin hisslər oyatdı. Mən duydum ki, zaldakı insanların əksəriyyəti qurbanların güclü ifadələrindən dərin təsirləniblər. Sağ qalanların birbaşa dinlənilməsi hakimlərə bu və minlərlə digər ifadənin etibarlığını qiymətləndirməyə imkan verir", - deyə A.Süleyman bildirib. O, həmçinin vurğulayıb ki, Qambiya məhkəməyə Myanmanın soyqırımı niyyətinə dair dəqiq və inandırıcı dəlillər təqdim edib və bunlar məhkəmə tərəfindən müəyyən edilmiş yüksək sübut standartlarına cavab verib.

Fortify Rights şirkətinin təsisçisi və baş direktoru isə deyib ki, üçhəftəlik dinləmələrin ən əhəmiyyətli aspektlərindən biri Myanma hərbi xuntasının nümayəndələrinin məhkəmə zalında oturub rohinca müsəlmanlarına qarşı soyqırımı ilə bağlı dəlilləri və ifadələri dinləməyə məcbur edilməsi olub. M.Smit qeyd edib ki, Myanma ordusunun "Feysbuk" və digər sosial media platformalarından istifadəsi Qambiyanın işini əhəmiyyətli dərəcədə gücləndirib. Onun sözlərinə görə, nifrət yaydığı üçün hərbi xunta lideri general Min Aunq Hlainqin də daxil olmaqla bir neçə "Feysbuk" səhifəsinin bağlanması barədə elan xüsusilə əhəmiyyətlidir: "Bir neçə ildir ki, Myanma ordusu "Feysbuk" platformasından Metanın "koordinasiyalı qeyri-səmimi davranış" adlandırdığı bir hissə kimi istifadə edir. Bu, geniş ictimaiyyətə gizli təsir göstərərək rohinca müsəlmanları və Arakan əyalətindəki hadisələr haqqında ictimai rəy formalaşdırıb və bu qrupa qarşı zorakılığa təhrik edib. Xüsusi əhəmiyyəti olan odur ki, bu fəaliyyət rəsmi hərbi məlumatlara əsasən həyata keçirilib. Bu, texnologiyanın soyqırımı aktları da daxil olmaqla geniş məqsədlər üçün necə istifadə edilə biləcəyini açıq şəkildə göstərir".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Hava yağıntılı olacaq, bəzi yollar buz bağlayacaq

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, fevralın 11-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin arabir yağıntılı olacağı, 10-dan 11-nə keçən gecə və səhər bəzi yerlərdə sulu qar, qar yağacağı proqnozlaşdırılır.

Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 2-5 dərəcə isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunundan 762 millimetr civə sütununa enəcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək. Gecə və səhər bəzi şəhərətrafı yolların buz bağlayacağı ehtimalı var.

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 3-6 dərəcə isti, dağlarda gecə 5-10, yüksək dağlıq ərazilərdə 10-15, gündüz 0-5 dərəcə şaxta olacaq. Bəzi yolların buz bağlayacağı ehtimal edilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Nicat Ədalət oğlu Yusifovun adına verilmiş Şəhid ailəsi üzvünün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Günay Ağamalıya atası

**FƏZAİL AĞAMALININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Milli Məclisin sabiq deputatı

**FƏZAİL AĞAMALININ**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin 1985-ci il 239-cu qrup məzunları qrup yoldaşları Dilbər Şabanovaya atası

**HƏMİD MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Günay Ağamalıya atası

**FƏZAİL AĞAMALININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin kollektivi agentliyin əməkdaşı Yalçın Ağamalıya atası

**FƏZAİL AĞAMALININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi daxili işlər nazirinin birinci müavini Seyfulla Əzimova anası

**SƏMƏRQƏND ƏZİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Səbail rayonundan Vuqar Zeynalov Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri Hicran Hüseynova və komitənin üzvləri Azərbaycan Respublikası Milli Məclisinin deputatı Günay Ağamalıya atası

**FƏZAİL AĞAMALININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikası Milli Məclisinin deputatı Günay Ağamalıya atası

**FƏZAİL AĞAMALININ**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Vüsal Şəfiyevə atası

**ƏLİŞİRAZ ŞƏFİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini polis general-leytenantı Seyfulla Əzimova anası

**SƏMƏRQƏND ƏZİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 539-72-39
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60, 434-55-58
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3211
Sifariş 203
Qiyməti 60 qəpik